RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 254 (8847) ÇƏRŞƏNBƏ 24 noyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# Qlobal təşəbbüslər müəllifi

## Prezident İlham Əliyevin əməkdaşlıq və həmrəyliyə xidmət edən təşəbbüsləri beynəlxalq səviyyədə təqdir edilir

**İnkaredilməz faktdır ki, son 18 ildə Azərbaycan söz və nüfuz sahibi kimi qlobal proseslərdə aktiv mövqeyi ilə seçilir. Xüsusilə də Prezident İlham Əliyevin müstəqil siyasəti Azərbaycanın beynəlxalq mövqeyinin daha da möhkəmlənməsini, nüfuzunun davamlı olaraq yüksəlməsini təmin edib.**

Vətən müharibəsindəki hərbi-siyasi Zəfərimiz isə ölkəmizin siyasi çəkisini daha da yüksəldib. Bu reallığı əks etdirən çoxsaylı faktlar mövcuddur.

### Tam müstəqil, qüdrətli dövlət

Bir ölkə çərçivəsində liderlik etmək xalqın etibarını qazanmaqdan qaynaqlanır. Qlobal səviyyəli lider kimi özünü təsdiq etmək üçün isə dünya ölkələrinin etibarını qazanmaq lazım olur. Azərbaycan Prezidenti bu etimadı çoxdan qazanıb və sözünə, vədinə sadiq lider kimi ölkəmizi dünyada ən etibarlı tərəfdaşa çevirib.

Cənubi Qafqaz regionunda geosiyasi və geoiqtisadi çəkisi gündən-günə artan, Avrasiyanın əlverişli nəqliyyat-logistika mərkəzinə çevrilərək qitənin enerji xəritəsini yenidən tərtib edən Azərbaycan reallaşdırdığı transmilli layihələrlə beynəlxalq birliyin ən etibarlı tərəfdaşı hesab olunur. Açıq dənizə çıxışı olmayan bir ölkənin qısa zamanda Avropanın enerji təhlükəsizliyində mühüm rol oynayan dövlətə çevrilməsi, həqiqətən də, ölkəmiz adına böyük nailiyyətdir. Bu uğurlar Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyevin 18 il ərzində həyata keçirdiyi tam müstəqil və düşünülmüş siyasəti fonunda əldə edilib.

*Ardı 4-cü səh.*

# Zəfər büdcəsi uğur vəd edir

## Gələn ilin əsas maliyyə sənədi yeni çağırışlara cavab vermək üçün real imkanlar yaradacaq

**Noyabrın 23-də Milli Məclisin Sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. Hökumət üzvlərinin də iştirak etdiyi iclasda gələn ilin dövlət büdcəsi zərfinə aid sənədlər müzakirəyə çıxarılıb və üç qanun layihəsi ikinci oxunuşda qəbul edilib.**

*Bax: səh. 3*

# Qousal Azam SARKER: "Azərbaycanın enerji siyasətində əldə etdiyi uğurlar Prezident İlham Əliyevin müdrik siyasətinin nəticəsidir"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Banqladeş Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qousal Azam Sarkerin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Qousal Azam Sarker əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycanın enerji siyasətində əldə etdiyi uğurlarda Prezident İlham Əliyevin müdrik siyasətini yüksək qiymətləndirdiklərini vurğuladı. O, qeyd etdi ki, səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərin inkişaf etdirilməsi üçün əlindən gələni əsirgəməyəcək.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Dövlətimizin başçısı səfirlə söhbət etdi.

*Ardı 2-ci səh.*

# Azərbaycan Filippinlə əməkdaşlığın, o cümlədən ticarət əlaqələrinin genişləndirilməsində maraqlıdır



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Filippin Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Maria Elena Alqabrenin etimadnaməsini qəbul edib.**

AZƏRTAC xəbər verir ki, səfir Maria Elena Alqabre Filippin Prezidenti Rodriqo Roa Dutertenin və xalqının salamlarını dövlətimizin başçısına çatdırdı. O, Filippin dövlətinin başçısının ölkələrimiz arasında əlaqələri genişləndirmək istədiyini vurğuladı.

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Filippin Prezidenti Rodriqo Roa Dutertenin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Filippin dövlətinin başçısına və xalqına çatdırmağı xahiş etdi.

Prezident İlham Əliyev Azərbaycanın da Filippinlə əməkdaşlığın, o cümlədən ticarət əlaqələrinin genişləndirilməsində maraqlı olduğunu bildirdi. Dövlətimizin başçısı ölkəmizin Qoşulmama Hərəkatına sədrliyinin 2023-cü ilədək uzadılması və bu təşkilat çərçivəsində Azərbaycanın irəli sürdüyü təşəbbüslərə, xüsusilə vaksinlərin ədalətli bölgüsü ilə bağlı təşəbbüsə Filippinin verdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Prezident İlham Əliyev Qoşulmama Hərəkatının sədri kimi Azərbaycanın mövqeyinin həmişə üzv ölkələrin maraqlarının qorunması və əlaqələrin möhkəmləndirilməsindən ibarət olduğunu vurğuladı.

*Ardı 2-ci səh.*

# Zəfərin təməli

## Gənc nəslin nümayiş etdirdiyi misilsiz vətənpərvərlik 30 illik işğalı 44 günə sonlandırdı

"...44 gün ərzində Azərbaycan Ermənistanın 30 il müddətində qurduğu bütün istehkamlarını, bütün döyüş mövqelərini sıradan çıxardaraq, Ermənistan ordusunu məhv edərək tarixi Zəfər çaldı. Bu şanlı bayramı xalqımıza siz və sizin kimi on minlərlə hərbçimiz bəxş etmişdir..."

Azərbaycan Silahlı Qüvvələrinin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin 8 Noyabr - Zəfər Günündə Şuşada hərbçilər qarşısında çıxışı zamanı vurğuladığı kimi, rəşadətli Azərbaycan Ordusunun mərd igidlərinin qarşısında heç bir düşmən qüvvəsi, maneəsi tab gətirə, dayana bilməz və məhvə məhkumdur. Çünki ana torpağımızın müdafiəsinə qalxan qəhrəman oğullarımız hər zaman "Vətən, sənə canım fəda" deyərək yurdlarımızın harayına tələsir, bu uğurda canını belə qurban verməkdən çəkinmir.

*Ardı 5-ci səh.*

# "Şahdəniz"də daha bir quyu hasilata başladı



*Bax: səh. 6*

# «Zəngəzur da, Qarabağ da Azərbaycan torpağıdır!»

## Rəsmi İrəvanın İlham Əliyevin qərarları ilə hesablaşdığını bildirən ermənilər bunu Azərbaycanın növbəti qələbəsi kimi dəyərləndirirlər

**Azərbaycanın Zəngəzur dəhlizində israrlı olması son günlərdə Ermənistanda ciddi müzakirə mövzusuna çevrilib. Ermənistanda həm iqtidar, həm də müxalifət bir-birini ittiham edir. Müxalifət iddia edir ki, iqtidar Zəngəzuru hissə-hissə Azərbaycana təhvil verəcək.**

Bu fonda İrəvanda etiraz aksiyalarına başlanılıb. Aksiyanın təşəbbüskarları siyasi partiyalar, ictimai təşkilatlar, eləcə də ayrı-ayrı şəxslərdir.

### "Yaxın vaxtlarda Zəngəzurda bir dənə də erməni ailəsi qalmayacaq"

Aksiyaçılar Azərbaycanla sərhədlərin delimitasiyası və demarkasiyasına qarşı çıxır, imzalanması nəzərdə tutulan sənədlərin açıqlanmasını tələb edirlər. İrəvanın bəzi küçə və prospektlərində aksiyalar səbəbindən avtomobillərin hərəkətində problem yaranıb.

*Ardı 7-ci səh.*

# Qousal Azam SARKER: "Azərbaycanın enerji siyasətində əldə etdiyi uğurlar Prezident İlham Əliyevin müdrik siyasətinin nəticəsidir"



Əvvəli 1-ci səh.

Prezident İlham Əliyev ölkələrimiz arasında beynəlxalq təşkilatlar çərçivəsində yaxşı siyasi dialoqun aparıldığını vurğuladı və Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik müddətinin 2023-cü ilədək uzadılmasında Banqladeşin göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi. Dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə üzv ölkələrin maraqlarının qorunması, COVID-19 ilə mübarizə, vaksinlərin ədalətli bölgüsü sahəsində fəal şəkildə böyük səylər göstərdiyini qeyd etdi. Prezident İlham Əliyev tarixi torpaqlarımızın erməni işğalından azad edilməsi məsələsində həm Qoşulmama Hərəkatı, həm də İslam Əməkdaşlıq Təşkilatı çərçivəsində Azərbaycanın haqlı mövqeyinin Banqladeş tərəfindən dəstəkləndiyini yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı Qousal Azam Sarkerin səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında münasibətlərin inkişafına və iqtisadi əməkdaşlığın prioritetlərinin müəyyənləşməsi işinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.

Banqladeş Xalq Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qousal Azam Sarker ölkəsinin Azərbaycanla münasibətlərə böyük önəm verdiyini dedi.

# Azərbaycan Filippinlə əməkdaşlığın, o cümlədən ticarət əlaqələrinin genişləndirilməsində maraqlıdır



Əvvəli 1-ci səh.

İkitərəfli münasibətlərə gəldikdə dövlətimizin başçısı siyasi və iqtisadi sahələrdə əlaqələrin fəallaşdırılması, iqtisadi-ticari münasibətlərin qurulmasının vacibliyini qeyd etdi və Maria Elena Alqabrenin səfirlik fəaliyyəti dövründə ölkələrimiz arasında əlaqələrin möhkəmlənəcəyinə töhfə verəcəyinə ümidvar olduğunu ifadə etdi.

Filippinin ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri xanım Maria Elena Alqabre, ilk növbədə, Prezident İlham Əliyevi və Azərbaycan xalqını Zəfər Günü və ərazi bütövlüyünün bərpa olunması, həmçinin Milli Dirçəliş Günü münasibətilə təbrik etdi.

Maria Elena Alqabre səfirlik fəaliyyəti dövründə Azərbaycanla Filippin arasında həm ikitərəfli, həm də çoxtərəfli müstəvidə siyasi, iqtisadi əməkdaşlığın, eləcə də insanlar arasında əlaqələrin inkişafı istiqamətində səylərini əsirgəməyəcəyini dedi. Səfir Azərbaycan Prezidentinin təşəbbüsü ilə COVID-19-a həsr olunan videokonfrans formatında Zirvə toplantısının, BMT Baş Assambleyasının xüsusi sessiyasının keçirilməsinin və bu günlərdə BMT Baş Assambleyasında COVID-19 və vaksinlərə dair qəbul olunmuş qətnamənin əhəmiyyətinə toxundu. Maria Elena Alqabre həmçinin Azərbaycanın uğurlu iqtisadi inkişaf modeli haqqında danışaraq, ölkəmizin bu nailiyyətlərinin beynəlxalq təşkilatların hesabatlarında mütərəqqi nümunə kimi əks olunduğunu qeyd etdi.

# Azərbaycanla Kamboca arasında çox yaxın siyasi əlaqələr mövcuddur

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Kamboca Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Kim Henq Measın etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Kim Henq Meas etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.**

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Kambocanın Azərbaycana dost ölkə olduğunu deyən dövlətimizin başçısı Azərbaycan tərəfinin münasibətlərin inkişafında maraqlı olduğunu vurğuladı. Azərbaycanla Kamboca arasında çox yaxın siyasi əlaqələrin mövcud olduğunu deyən dövlətimizin başçısı səfir Kim Henq Measın ölkələrimizin biznes dairələri arasında da əməkdaşlığın qurulması işində səylərini əsirgəməyəcəyinə ümidvar olduğunu bildirdi. Prezident İlham Əliyev eyni zamanda humanitar sahədə də əməkdaşlığın genişləndirilməsi üçün yaxşı potensialın olduğunu qeyd etdi.

Xoş sözlərə görə təşəkkürünü bildirən səfir Kim Henq Meas Kambocanın Kral həzrətləri Norodom Sihamoninin salamlarını və firavanlıq arzularını dövlətimizin başçısına və Azərbaycan xalqına çatdırdı.

Prezident İlham Əliyev Norodom Sihamoninin salamlarına görə minnətdarlığını bildirdi, onun da salamlarını Kral həzrətlərinə çatdırmağı xahiş etdi.



Səfir Kim Henq Meas ölkələrimiz arasında regional və beynəlxalq təşkilatlar çərçivəsində yüksək səviyyədə əlaqələrin olduğunu vurğulayaraq fəaliyyəti dövründə Kamboca-Azərbaycan dostluq münasibətlərinin və əməkdaşlıq əlaqələrinin möhkəmlənməsi istiqamətində səylərini əsirgəməyəcəyini diqqətə çatdırdı.

# Rodriqo ARKOS: "Çili Azərbaycanla Sakit Okean Alyansında müşahidəçi statusunda münasibətlərə xüsusi əhəmiyyət verir"



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 23-də Çili Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Rodriqo Arkosun etimadnaməsini qəbul edib. AZƏRTAC xəbər verir ki, səfir Rodriqo Arkos etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.**

Sonra Azərbaycan Prezidenti İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı Azərbaycanla Çilinin beynəlxalq təşkilatlar çərçivəsində və ikitərəfli formatda əməkdaşlıq etdiyini bildirdi. Prezident İlham Əliyev ölkələrimiz arasında ticarət, iqtisadiyyat sahələrində əlaqələrin qurulmasının önəmini vurğulayaraq biznes dairələri arasında əməkdaşlığın yaradılmasının vacibliyini bildirdi, bu baxımdan ölkələrimiz barədə məlumatların insanlara çatdırılmasının önəmini qeyd etdi.

Prezident İlham Əliyev Qoşulmama Hərəkatına Azərbaycanın sədrliyinin 2023-cü ilə qədər uzadılması ilə bağlı Çilinin göstərdiyi dəstəyə görə minnətdarlığını bildirdi, Azərbaycanın bundan sonra da sədr kimi Qoşulmama Hərəkatına üzv dövlətlər arasında əməkdaşlığın gücləndirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir Rodriqo Arkos ölkəsinin Azərbaycanla münasibətlərin inkişaf etdirilməsində maraqlı olduğunu bildirdi. Eyni zamanda Azərbaycanın Qoşulmama Hərəkatına və Türk Dövlətləri Təşkilatına uğurlu sədrliyi ilə bağlı təbriklərini çatdırdı. Səfir Rodriqo Arkos Azərbaycanla Sakit Okean Alyansında müşahidəçi statusunda münasibətlərə xüsusi əhəmiyyət verdiklərini bildirdi, post-COVID dövründə ölkələrimiz arasında daha sıx əlaqələrin qurulacağına əminliyini ifadə etdi.

# K.T.Vəliyevə "general-polkovnik" ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

General-leytenant Kərim Tofiq oğlu Vəliyevə "general-polkovnik" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 noyabr 2021-ci il*

# Ə.Z.Əfəndiyevə "general-leytenant" ali hərbi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

General-mayor Ənvər Zəkəriyyə oğlu Əfəndiyevə "general-leytenant" ali hərbi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 noyabr 2021-ci il*

# Azərbaycan Respublikası vətəndaşlarının 2022-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılması və müddətli həqiqi hərbi xidmət hərbi qulluqçularının ehtiyata buraxılması haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 26-cı bəndini rəhbər tutaraq, "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 12.3-cü və 40.1-ci maddələrinə əsasən və Azərbaycan Respublikasının Silahlı Qüvvələrini şəxsi heyətlə komplektləşdirmək məqsədilə **qərara alıram:**

1. 2004-cü ildə doğulmuş və çağırış gününədək (həmin gün də daxil olmaqla) 18 yaşı tamam olmuş, habelə 1987-2003-cü illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, müddətli həqiqi hərbi xidmətə çağırışdan möhlət hüququ olmayan və ya müddətli həqiqi hərbi xidmətə çağırışdan azad edilməmiş Azərbaycan Respublikası vətəndaşları 2022-ci il yanvarın 1-dən 30-dək müddətli həqiqi hərbi xidmətə çağırılsınlar.

2. "Hərbi vəzifə və hərbi xidmət haqqında" Azərbaycan Respublikası Qanununun 38.1.1-ci maddəsində nəzərdə tutulmuş xidmət müddətini keçmiş müddətli həqiqi hərbi xidmət hərbi qulluqçuları 2022-ci il yanvarın 1-dən 30-dək ehtiyata buraxılsınlar.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamın icrası üçün qanunvericilikdə nəzərdə tutulmuş tədbirləri görsün.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 noyabr 2021-ci il*

# K.B.Əliyevə 1-ci dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsinin verilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının baş prokuroru Kamran Bayram oğlu Əliyevə 1-ci dərəcəli dövlət ədliyyə müşaviri ali xüsusi rütbəsi verilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 noyabr 2021-ci il*

# F.Q.Xəlilovun 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan təsviri sənətinin inkişafında və təbliğində uzunmüddətli səmərəli fəaliyyətinə görə Fərhad Qurban oğlu Xəlilov 1-ci dərəcəli "Əmək" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 23 noyabr 2021-ci il*

## Milli Məclisin iclasında

# Zəfər büdcəsi uğur vəd edir

## Gələn ilin əsas maliyyə sənədi yeni çağırışlara cavab vermək üçün real imkanlar yaradacaq

**Noyabrın 23-də Milli Məclisin Sədri Sahibə Qafarovanın sədrliyi ilə parlamentin növbəti plenar iclası keçirilib. Hökumət üzvlərinin də iştirak etdiyi iclasda gələn ilin dövlət büdcəsi zərfinə aid sənədlər müzakirəyə çıxarılıb və üç qanun layihəsi ikinci oxunuşda qəbul edilib.**





### Deputatlardan Fransa senatına kəskin etiraz

İclasda 24 məsələdən ibarət gündəlik təsdiqləndikdən sonra cari məsələlərin müzakirəsinə başlanıb. Bir sıra mühüm məsələlərə toxunan komitə sədrlərindən Zahid Oruc, Siyavuş Novruzov, deputatlardan Soltan Məmmədov, Qüdrət Həsənquliyev, Hikmət Məmmədov, Aydın Mirzəzadə, Tural Gəncəliyev, Razi Nurullayev, Fazil Mustafa, Tahir Kərimli bu günlərdə Fransa Senatında rəsmi şəxslərin erməni separatçılarını qəbul etməsini kəskin qınayıblar. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki separatçıların Fransanın bəzi rəsmi şəxsləri səviyyəsində "rəsmi qonaq - nazir və parlament spikeri" kimi qəbul edilməsi qətiyyətlə pislənilib. Bu hadisə postmüharibə dövründə Cənubi Qafqazda yaranmış yeni reallıqları düzgün qiymətləndirməməyin və ikili standartların təzahürü, bölgədə sülhün gəlişini əngəlləməyə hesablanmış qərəzli addım kimi qiymətləndirilib. Bildirilib ki, bu kimi hallar Cənubi Qafqazdakı yeni reallıqlar şəraitində Fransanın əməkdaşlıq imkanlarını məhdudlaşdırır.

### Yeni büdcədə əvvəlki illərdə olmayan bir çox yeniliklər əksini tapıb

Sonra gündəlikdəki məsələlərin müzakirəsinə başlanıb. Spiker Sahibə Qafarova xatırladıb ki, ikinci oxunuşda parlamentə təqdim olunmuş 24 məsələdən 22-si gələn ilin dövlət büdcəsi və büdcə zərfinə daxil olan qanun layihələridir.

Plenar iclasda ikinci oxunuşa təqdim olunmuş qanun layihələrinə bu oxunuşun prosedur qaydalarına uyğun surətdə baxılıb. "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" (ikinci oxunuş) məsələni təqdim edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, qanun layihəsi barədə birinci oxunuş zamanı həm hökumət üzvləri, həm də parlamentarilər tərəfindən ətraflı məlumat verilib. Plenar iclasda birinci oxunuş zamanı müzakirələrdə 28 deputat çıxış edib. Büdcə zərfinə daxil olan qanun layihələrinin ikinci oxunuş üçün komitələrdə müzakirəsi geniş formada təşkil edilib. İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında bütün komitələrin deputatlarının və aidiyyəti dövlət orqanlarının iştirakı ilə ətraflı müzakirələr aparılıb və sənədə müsbət rəy verilib. İclasda həmçinin deputatları maraqlandıran bir sıra məsələlərə aydınlıq gətirilib, suallara cavab verilib.

Layihədə Azərbaycanın 2022-ci il dövlət büdcəsi gəlirlərinin 26 milyard 816 milyon manat, xərclərinin isə 29 milyard 879 milyon manat məbləğində nəzərdə tutulduğunu xatırladan komitə sədri büdcədəki bir sıra mühüm göstəriciləri də nəzərə çatdırıb. O, parlamentin komitə və plenar iclaslarında aparılan geniş və peşəkar müzakirələri Milli Məclislə hökumət arasında olan səmərəli əməkdaşlığın mühüm göstəricisi kimi dəyərləndirib. Bir daha əminliyini bildirib ki, 2022-ci ilin dövlət büdcəsi dövlətin növbəti ildə qarşıda duran hədəflərə çatmasına və yaranacaq çağırışlara cavab verməsinə lazımi maliyyə imkanı yaradacaq.

Sonra iclasda müzakirələr başlanıb. Qanun layihəsinə ikinci oxunuşda münasibət bildirən Vüqar Bayramov, Tahir Kərimli, Elşad Mirbəşir oğlu, Jalə Əliyeva, Bəxtiyar Əliyev, Tahir Rzayev, Naqif Həmzəyev, Aydın Hüseynov, Qüdrət Həsənquliyev, Məlahət İbrahimqızı, Fazil Mustafa, Cəbi Quliyev, Səttar Möhbalıyev, Eldar İbrahimov, Sadiq Qurbanov, İltizam Yusifov, Tural Gəncəliyev, İsa Həbibbəyli, Etibar Əliyev, Azər Kərimli, Aqil Məmmədov qanun layihəsi barədə rəy və təkliflərini hökumət üzvlərinin diqqətinə çatdırıblar. Təmsil etdikləri bölgələrdəki problemlərin həllinin büdcədə nəzərə alınmasına çalışıblar.

### İqtisadi gücün və potensialın real göstəricisi

Çıxışlarda müstəqillik tariximizin ən böyük həcmli büdcəsi olan 2022-ci ilin dövlət büdcəsi Azərbaycanın iqtisadi gücünün və potensialının, gələcək üçün atılacaq addımların sübutu kimi qiymətləndirilib. Bildirilib ki, gəlirlər və xərclər istiqaməti üzrə büdcə rasional şəkildə tərtib olunub. Milli prioritetlər olaraq müəyyənləşdirilmiş bütün sahələrin inkişafı üçün vacib məsələlər, eləcə də dünyada gedən proseslərlə əlaqədar yeni çağırışlar nəzərə alınıb.

Qeyd olunub ki, Böyük qayıdış ilinin büdcəsi olmaqla 2022-ci ilin əsas maliyyə sənədi böyük ictimai-siyasi və tarixi əhəmiyyətə malikdir. Yeni büdcə zərfində əvvəlki illərdə olmayan bir çox yeniliklər öz əksini tapıb. Azad edilmiş ərazilərdə quruculuq işlərinin aparılması üçün 2,2 milyard manat vəsaitin ayrılması həm xalqımız tərəfindən böyük rəğbətlə qarşılanıb, həm də beynəlxalq miqyasda işgüzar dairələrin ciddi marağına səbəb olub.

İclasda iqtisadiyyat nazirinin müavini Sevinc Həsənova, maliyyə naziri Samir Şərifov, Hesablama Palatasının sədri Vüqar Gülməmmədov çıxış edərək büdcə zərfi ilə bağlı deputatların qaldırdıqları məsələlərə aydınlıq gətirib, suallara cavab veriblər.

Səsvermə zamanı 17 maddədən ibarət olan "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında" qanun layihəsi Milli Məclisdə ikinci oxunuşda qəbul olunub.

Sonra iclasda "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsinə (ikinci oxunuş) baxılıb. Layihəni təqdim edən Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev bildirib ki, qanun layihəsində Dövlət Sosial Müdafiə Fondunun (DSMF) 2022-ci il üçün gəlirləri və xərcləri bərabər olmaqla 5 milyard 307 milyon manat proqnozlaşdırılır ki, bu da cari ilin göstəricisindən 429 milyon manat və ya 8,8 faiz çoxdur.

Komitə sədri nəzərə çatdırıb ki, birinci oxunuşda büdcənin gəlirləri və xərcləri ilə əlaqədar bütün parametrlər, proqnozlar və büdcə ilə bağlı təkliflər ətraflı nəzərdən keçirilib. İkinci oxunuş zamanı komitə iclasında qanun layihəsinin mətninə heç bir dəyişiklik olunmayıb.

Plenar iclasda əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov məşğulluq məsələləri, regionlarda yeni iş yerlərinin yaradılması və s. ilə bağlı deputatların qaldırdıqları məsələlərə ətraflı şərh verib, konkret faktlara istinadən görülmüş işləri deputatların nəzərinə çatdırıb.

Deputatlar 6 maddədən ibarət "Dövlət sosial müdafiə fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsinə ikinci oxunuşda müsbət münasibət bildiriblər.

Sonra Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsini ikinci oxunuşda təqdim edib. Bildirib ki, İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsinin gəlirləri və xərcləri bərabər olmaqla 180 milyon 375 min 536 manat məbləğində nəzərdə tutulub. Deputatlar müzakirə zamanı layihəni dəstəkləyiblər. Mətndə dəyişiklik yoxdur.

Müzakirə zamanı deputat Əli Məsimli ölkədə işsizliyin faizi ilə bağlı mülahizələrini bölüşüb.

5 maddədən ibarət "İşsizlikdən sığorta fondunun 2022-ci il büdcəsi haqqında" qanun layihəsi səsə qoyularaq ikinci oxunuşda qəbul olunub.

Milli Məclisdə büdcə zərfindəki qanun layihələrinin ikinci oxunuşda müzakirələri bu gün davam etdiriləcək.

***Rəşad BAXŞƏLİYEV,***
***Ülkər XASPOLADOVA,***
***"Azərbaycan"***

## Milli Məclis Sədrinin başçılığı ilə parlament nümayəndə heyəti Sankt-Peterburq şəhərinə səfər edəcək

Milli Məclisin Sədri Sahibə Qafarovanın başçılığı ilə parlament nümayəndə heyəti MDB PA-nın şura və 53-cü plenar iclaslarında iştirak etmək üçün noyabrın 24-də Rusiya Federasiyasının Sankt-Peterburq şəhərinə səfər edəcək.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, nümayəndə heyətinin tərkibinə deputatlardan Nizami Səfərov, Anatoliy Rafailov, Rüfət Quliyev, Anar Məmmədov, Rasim Musabəyov, Tamam Cəfərova, Milli Məclis Aparatının rəhbəri Səfa Mirzəyev və digər rəsmi şəxslər daxildirlər.

Milli Məclisin Sədri təşkilatın şura və plenar iclaslarında gündəlikdəki məsələlərin müzakirəsində iştirak edəcək, Azərbaycan tərəfinin mövqeyini bildirəcək. Səfər çərçivəsində nümayəndə heyətimiz səhiyyə xidmətlərinin hamını əhatə etməsi və dayanıqlı inkişaf məsələlərinə həsr olunmuş beynəlxalq konfransda iştirak edəcək.

Parlament Sədrinin tədbirdə iştirak edəcək nümayəndə heyətlərinin rəhbərləri ilə bir sıra görüşləri də nəzərdə tutulub. Bu görüşlərdə təşkilatın gələcək fəaliyyəti, parlamentlərarası əlaqələrin inkişaf perspektivləri və tərəfləri maraqlandıran digər məsələlər müzakirə olunacaq.

Parlament nümayəndə heyətinin Sankt-Peterburqa səfəri noyabrın 26-da başa çatacaq.

## Avropa İttifaqının Dialoq layihəsinin nümayəndələri Milli Məclisdə olublar



Noyabrın 23-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini Sevinc Fətəliyeva Avropa İttifaqının Dialoq layihəsinin nümayəndələri ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, qonaqları salamlayan Sevinc Fətəliyeva onlara Azərbaycanın Vətən müharibəsində əldə etdiyi Zəfərdən sonra bölgədəki mövcud situasiya, azad edilmiş Azərbaycan torpaqlarında Ermənistanın 30 illik işğalının acı nəticələri, regionda yaranan yeni reallıqlar və əməkdaşlıq imkanları barədə məlumat verib.

Avropa İttifaqının Dialoq layihəsinin qrup rəhbəri Tanya Tamminen Avropa İttifaqının Dialoq layihəsi və rəhbərlik etdiyi qrupun işi barədə məlumat verib. Bildirib ki, hazırda onlar Cənubi Qafqazda sülhün dəstəklənməsi ilə bağlı müxtəlif təşəbbüslər üzərində işləyirlər. Tanya Tamminen Ermənistan və Azərbaycan arasındakı müharibədən sonra Cənubi Qafqazda sülhün bərqərar olması üçün dialoqun reallaşmasına cəhdlər göstərməyin və yeni təşəbbüslər irəli sürməyin əhəmiyyətindən danışıb. Müxtəlif sahələrdə, səviyyələrdə reallaşa biləcək dialoqun önəmini vurğulayıb.

Sevinc Fətəliyeva bildirib ki, Azərbaycan həmişə dialoqa sadiq olub. Bu dialoq müxtəlif mövzularda təşkil edilə bilər, lakin, ilk növbədə, məsələnin siyasi istiqamətdə həlli vacibdir. O, Azərbaycanın torpaqlarını qəti qələbə nəticəsində Ermənistanın işğalından azad etdikdən sonra da maksimum konstruktivlik nümayiş etdirərək qarşı tərəfə humanist yanaşması, əməkdaşlıq və sülh təklifləri barədə məlumat verib. Ermənistanın öz öhdəliklərini yerinə yetirməsinin vacibliyini önə çəkən Milli Məclisin deputatı bildirib ki, müharibənin bitməsindən bir ildən çox müddət keçməsinə baxmayaraq, Ermənistan bu istiqamətdə real addımlar atmayıb.

Sonra görüşdə tərəfləri maraqlandıran digər məsələlərə dair fikir mübadiləsi aparılıb.

# Gələn ilin dövlət büdcəsi davamlı yüksəlişə təminat verir

***Dövlətin iqtisadi siyasətində və inkişafında vacib rol oynayan məsələlərdən biri dövlət büdcəsində qarşıya qoyulan vəzifələr və onların icrasıdır. Hazırda respublikamızın gələn il üçün dövlət büdcəsinin parlamentdə müzakirəsi davam edir. Büdcə layihəsi hazırlanarkən müəyyən edilmiş strateji xəttə və prioritet vəzifələrə uyğun olaraq iqtisadi inkişafın təmin olunması, sosial məsələlər, ölkəmizin müdafiə potensialının möhkəmləndirilməsi kimi məsələlərə xüsusi diqqət yetirilib.***

***Milli Məclisin deputatlarının fikirləri də bu barədədir.***

### Sosialyönümlü büdcə

***Rəşad MAHMUDOV,***
*Milli Məclisin deputatı,*
*YAP İdarə Heyətinin üzvü:*

- Bu gün ölkəmizdə mütərəqqi sosial siyasətin həyata keçirilməsinə, vətəndaşların müdafiəsinin gücləndirilməsinə mühüm önəm verilməsi təsadüfi deyil. Çünki insanlara maddi, mənəvi tələbatlarının ödənilməsi üçün zəruri şəraitin yaradılması Azərbaycan dövlətinin apardığı siyasətin mühüm prinsiplərindəndir. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasi kurs çərçivəsində sosial məsələlərin həlli, vətəndaşların sosial müdafiəsinin gücləndirilməsi hər zaman diqqət mərkəzindədir. İnsanların yaşayış səviyyəsinin yaxşılaşdırılması, maaşların, pensiyaların artırılması, yeni sosial obyektlərin tikintisi dövlətimizin sosial siyasətinin prioritet istiqamətlərindəndir.

Gələn ilin dövlət büdcəsində xalqın rifahının yaxşılaşdırılması və sosial müdafiəsinin təmin edilməsi üçün 2022-ci il yanvarın 1-dən əməkhaqların və əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin artırılmasının qarşıya mühüm vəzifə kimi qoyulması da ölkəmizdə mütərəqqi sosial siyasətin diqqət mərkəzində saxlanılmasından xəbər verir. Büdcədə sosial xərclərin 46,4 faizə çatdırılması və 2021-ci illə müqayisədə 13,5 faiz, yəni 1 milyard 650 milyon manat artırılması bunun bariz ifadəsidir. Büdcədə bu xərclərin maliyyə tutumunun 13 milyard 851 milyon manata çatdırılması nəzərdə tutulur. Həmin xərclərin 60 faizi əməyin ödənilməsi ilə bağlıdır. Belə ki, 2022-ci ildə əməyin ödənilməsinə 8 milyard 97 milyon manat məbləğində vəsait təklif olunur. Sosial təminat xərcləri üçün dövlət büdcəsində 3 milyard 566 milyon manat vəsait nəzərdə tutulur".

Büdcədə prioritet istiqamətlərdən biri də təhsil sahəsidir. Təhsil xərclərinə büdcədən 3 milyard 884 milyon manat ayrılması nəzərdə tutulur. Digər prioritet istiqamət olan səhiyyə sahəsinə ayrılan vəsait isə cari ildən başlayaraq tətbiq olunan icbari tibbi sığorta öhdəlikləri də nəzərə alınmaqla 1 milyard 789 milyon manat müəyyən edilir. Bütün bunlar isə Azərbaycanda sosial siyasətin fasiləsiz və davamlı şəkildə həyata keçirilməsinin təsdiqidir. Bu həm də Prezidentlə cəmiyyətimiz arasında inam və etimad mühitini formalaşdıran ən təsirli amildir.

Hakimiyyətlə xalq arasında anlaşma və etimad məsələsində Azərbaycanın hətta inkişaf etmiş ölkələrin reytinqlərində ən yüksək pillələri tutması məhz sosial siyasətin dəqiqliyi və əhatəliliyi hesabına əldə olunan nəticədir. Dünyada çox az ölkə tapılar ki, sosial siyasətin təzahür formalarının müxtəlifliyinə görə respublikamızla müqayisə oluna bilsin. Prezident İlham Əliyevin son 18 ildə yürütdüyü sosialyönümlü siyasətin istiqaməti təkcə sosial bərabərsizliyi aradan götürmək deyil, həm də onu tarazlaşdırmaq, vətəndaşların maddi vəziyyətindəki fərqliliyi aradan qaldırmaq, təbəqələşməyə yol verməmək, cəmiyyətin bütün üzvlərinin layiqli həyat səviyyəsini təmin etmək məqsədi daşıyıb.

Bu il ölkədə iqtisadi artımın bərpası və sürətlənməsində pandemiya ilə bağlı hökumətin iqtisadiyyata genişmiqyaslı dəstək proqramlarının həyata keçirilməsi mühüm rol oynayıb. Bu məqsədlə noyabrın 1-dək 243 mindən çox muzdlu işçiyə 250 milyon manatadək vəsait ödənib, 108 minədək fərdi (mikro) sahibkara 113 milyon manatdan çox maliyyə dəstəyi göstərilib. COVID-19 pandemiyası bütün sahələr kimi, iqtisadiyyata da mənfi təsir göstərib. Bu təsirlərin aradan qaldırılması üçün Azərbaycan Prezidentinin bilavasitə rəhbərliyi altında hazırlanan və reallaşdırılan antiböhran proqramı, testləşdirmə, vaksinləşdirmə resurslarına tez və adekvat çıxış, səhiyyə infrastrukturunun gücləndirilməsi, miqyaslı yardım proqramlarının reallaşdırılması ölkəmizdə iqtisadi tənəzzülün qarşısını alıb, cari ildə iqtisadiyyatın bərpa və artımını gerçəkləşdirib.

### 2022-ci ilin dövlət büdcəsi inkişafa böyük töhfə verəcək

***Könül NURULLAYEVA,***
*Milli Məclisin deputatı:*

- Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan Vətən müharibəsindəki qələbədən sonra tamamilə yeni mərhələyə qədəm qoyub. Bu mərhələ həm də iqtisadi sferadakı pozitiv göstəricilərlə əlamətdardır. Pandemiyanın və digər xarici amillərin təsirlərinə baxmayaraq respublikamızda iqtisadi inkişafla bağı proqnozlar özünü uğurla doğruldur. Bu illə müqayisədə 2022-ci ilin dövlət büdcəsinin gəlir və xərclərində baş verən artım da bunu təsdiqləyir.

Hazırda Cənubi Qafqazda bütün məsələlərdə liderlik edən Azərbaycan dövlət büdcəsinin gəlir və xərclərinə görə də birincidir. 2021-ci ildə nail olduğumuz uğurlar 2022-ci ilin dövlət büdcəsinin bütün göstəricilərinin artırılmasına imkan yaradıb. Büdcənin artımla proqnozlaşdırılması həm də Azərbaycanda həyata keçirilən iqtisadi siyasətin düzgünlüyünü, islahatların uğurlu nəticə verdiyini göstərir.

Gələn ilin dövlət büdcəsində ayrı-ayrı sahələrlə bağlı xərclərin artımla nəzərdə tutulması respublkamızın inkişaf qanunauyğunluqları və maliyyə imkanlarının artması ilə tamamilə adekvatdır. Bu baxımdan büdcə layihəsi və büdcə zərfinə daxil olan digər sənədlər Azərbaycanın iqtisadi həyatında mövcud olan reallıqları tam və dolğun əks etdirir. Xüsusən sosial xərclərin artımını qeyd etmək yerinə düşərdi. Məlum olduğu kimi, əhalinin sosial müdafiəsinin gücləndirilməsi, onların gəlirlərinin artırılması dövlətimizin siyasətində önəmli yer tutur. Ölkə əhalisinin rifah halının yaxşılaşdırılması aparılan sosial-iqtisadi siyasətin mühüm prioritetlərindən biridir. Bu baxımdan gələn ilin büdcə xərclərində əhalinin sosial müdafiəsinin daha da gücləndirilməsinin, əmək pensiyalarının, sosial müavinətlərin, təqaüdlərin və digər sosial ödənişlərin artırılması ilə bağlı xərclərin, tibbi sığortanın tətbiqinin, COVID-19 pandemiyasına qarşı mübarizə tədbirlərinin maliyyə təminatının diqqətdə saxlanılması respublikamızda həyata keçirilən sosial siyasətin uğurlu nümunəsidir. O cümlədən təhsil, elm, səhiyyə və idman sahələri üzrə maddi-texniki təminatın daha da artırılması büdcə xərclərində diqqət mərkəzində olacaq. Elm, təhsil, səhiyyə sahələrində işləyənlərin əməkhaqlarının artırılması, elmi dərəcə üzrə müavinətlərin həcminin artırılması vacibdir və bununla bağlı işlər aparılır. Dövlətin təhsil sahəsində strategiyasına uyğun olaraq elmi-tədqiqat işlərinə, startaplara və innovasiyalara daha çox vəsaitin ayrılması müsbət nəticələr vəd edir.

Azərbaycanın dövlət büdcəsinin xərclərində artıq ikinci ildir ki, özünü göstərən yeniliklərdən biri işğaldan azad edilmiş ərazilərimizin bərpasına maliyyə vəsaitinin yönəldilməsidir. Ümumiyyətlə, torpaqlarımızın işğaldan azad olunması dövlət büdcəsi qarşısında yeni çağırışlar formalaşdırıb. İşğaldan azad olunmuş ərazilərdə bərpa işlərinin aparılması, həmin istiqamətlərdə ölkənin müdafiə qabiliyyətinin və milli təhlükəsizliyinin etibarlı şəkildə təmin olunması büdcə xərclərində prioritet istiqamətlərdən biri kimi müəyyən olunub. İşğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması üçün gələn ilin dövlət büdcəsindən 2,2 milyard manat vəsaitin nəzərdə tutulması təqdirəlayiqdir. Çünki doğma Qarabağın yenidən qurulması, "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması, həmin ərazilərdə sosial innovasiyaların, kiçik sahibkarlığın inkişafına şərait yaradılması əsas diqqət çəkən və maliyyə vəsaiti tələb edən sahələrdir.

Bütövlükdə, iqtisadi və sosial inkişaf konsepsiyasının əsas məqsədləri kimi ölkədə makroiqtisadi sabitliyin qorunub saxlanılması, iqtisadiyyatın diversifikasiyası, qeyri-neft sektorunun, regionların dinamik inkişafı, ətraf mühitin qorunması və nəticədə dayanıqlı iqtisadi inkişafın təmin olunması kimi məsələlər gələn ilin büdcə layihəsində ətraflı əksini tapıb. Qeyd olunanlar deməyə əsas verir ki, 2022-ci ilin dövlət büdcəsi ölkəmizin iqtisadi gücünün artırılmasına, icra olunan dövlət proqramlarının reallaşdırılmasına zəmin yaradacaq, əhalinin həyat səviyyəsinin yüksəlməsinə layiqincə xidmət edəcək.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***

## *Səfir:* "Finlandiya Azərbaycanla sıx əməkdaşlıq qurmaqda maraqlıdır"



Noyabrın 23-də Milli Məclisdə Azərbaycan-Finlandiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Razi Nurullayev Finlandiyanın ölkəmizdəki səfiri Kirsti Yohanna Narinen ilə görüşüb.

Parlamentin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildirilib ki, görüşdə deputat Azərbaycanın Finlandiya ilə münasibətlərə önəm verdiyini qeyd edib, parlamentlərarası əməkdaşlığın inkişaf etdirilməsinin əhəmiyyətindən danışıb.

Sonra qonaqlara Vətən müharibəsi nəticəsində işğaldan azad edilmiş Azərbaycan torpaqlarının Ermənistan tərəfindən 30 illik işğalının acı nəticələri barədə məlumat verilib, regionda iqtisadi əməkdaşlığın və davamlı sülhün möhkəmləndirilməsi imkanlarından bəhs olunub.

Səfir Kirsti Narine Finlandiyanın Azərbaycanla sıx əməkdaşlıq qurmaqda maraqlı olduğunu qeyd edib. Ölkəsinin sərhədlərin hərbi yolla dəyişdirilməsinə qarşı olduğunu deyən diplomat keçmişə deyil, gələcəyə baxmağın vacibliyinə diqqət çəkib. Azərbaycanın Avropanın enerji təchizatının şaxələndirilməsində önəmli rolundan danışan səfir rəsmi Bakının bu istiqamətdə gördüyü tədbirlərin möhtəşəm olduğunu vurğulayıb.

Sonra Milli Məclisin Səhiyyə komitəsinin sədri, Azərbaycan-Finlandiya parlamentlərarası əlaqələr üzrə işçi qrupunun üzvü Əhliman Əmiraslanov, qrupun digər üzvləri Etibar Əliyev, İsa Həbibbəyli, Ülviyyə Həmzəyeva və Müşfiq Məmmədli çıxış ediblər, Finlandiya ilə əlaqələrin genişləndirilməsi imkanları barədə fikirlərini bildiriblər.

# ADA Universiteti və Xarici İşlər Nazirliyinin birgə təşkil etdiyi "Xəzər Hövzəsi Araşdırmaları Proqramı" başa çatıb




ADA Universitetinin ixtisasartırma proqramları və Xarici İşlər Nazirliyinin birgə təşkilatçılığı ilə noyabrın 13-dən 20-dək həyata keçirilən "Xəzər Hövzəsi Araşdırmaları Proqramı" uğurla başa çatıb.





Universitetdən AZƏRTAC-a bildirilib ki, torpaqlarımızın işğaldan azad edilməsindən sonra ilk dəfə ali məktəbin kampusunda təşkil olunan proqram 19 ölkədə fəaliyyət göstərən universitet və beyin mərkəzini təmsil edən 21 tədqiqatçı və diplomatı bir araya gətirib.

Proqram ADA Universitetinin idarəetmə və professor-müəllim heyətinin üzvləri, Azərbaycanın dövlət qurumlarının yüksəkrütbəli məmur və diplomatları, o cümlədən xarici ekspertlər tərəfindən tədris edilib.

Proqramın açılışında ADA Universitetinin prorektor müavini Aygün Hacıyeva azərbaycanlı və xarici diplomatlar üçün təşkil edilən "Xarici Siyasət Proqramı", eləcə də "Xəzər Hövzəsi Araşdırmaları Proqramı"nı təqdim edib. A.Hacıyeva əlavə edib ki, ötən 10 il ərzində "Xəzər Hövzəsi Araşdırmaları Proqramı"nda 104 ölkədən 221 diplomat və dövlət qulluqçusu müvəffəqiyyətlə iştirak edib.

Proqram çərçivəsində Azərbaycan Respublikası Prezidentinin köməkçisi-Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev, Azərbaycanın Birinci vitse-prezidentinin köməkçisi Elçin Əmirbəyov çıxış edərək İkinci Qarabağ müharibəsinin regiona təsirləri, buradakı bərpa və yenidənqurma işləri və ərazilərin minalardan təmizlənməsi, habelə iki ölkə arasındakı sülh quruculuğu prosesi ilə bağlı xarici iştirakçıları məlumatlandırıblar. Qonaq çıxışçılar işğaldan azad edilmiş ərazilərdə icrası nəzərdə tutulan "ağıllı kənd" və "ağıllı şəhər" layihələrindən bəhs ediblər.

Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi sədrinin müavini Fuad Hüseynov "Uzunmüddətli məcburi köçkünlük və həsrətlə gözlənilən Qayıdış" mövzusunda çıxış edərək məcburi köçkünlərin işğaldan azad edilmiş ərazilərdə təhlükəsiz şəraitdə yaşamaları üçün hazırda müvafiq tədbirlərin həyata keçirildiyini deyib.

Proqrama qoşulanlar 44 günlük Vətən müharibəsi fonunda Xəzər hövzəsində baş verən tarixi yeniliklər, regionun geosiyasi və iqtisadi mühitində özünü büruzə verən dəyişikliklər, həmçinin məcburi köçkünlərin Qarabağa qayıdışı mövzularına dair mühazirələr dinləyiblər.

Proqram çərçivəsində Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyində "dəyirmi masa" təşkil edilib. Nazirliyin Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva ölkəmizin xarici siyasət prioritetləri barədə məlumat verərək iştirakçıların çoxsaylı suallarını cavablandırıb.

Xarici ekspertlərdən ABŞ-ın Hudson İnstitutunun baş tədqiqatçısı Maykl Doran və ADA Universitetinin siyasi tədqiqat və nəşrlər üzrə direktoru Damyan Krnceviç Mişkoviç mühazirələrlə çıxış ediblər.

Regiona və ölkəmizə dair nəzəri biliklər əldə edən qonaqlar Qarabağ bölgəsinin sürətli inkişafını yerində müşahidə etmək məqsədilə Ağdam rayonuna səfər ediblər. Qonaqlar işğal dövründə dağıntılara məruz qalan Ağdamın inkişafını əks etdirən "Ağdam şəhərinin Baş planı" barədə məlumat əldə ediblər.

Səfərlə bağlı öz təəssüratlarını bölüşən Pakistanın Qlobal və Strateji Araşdırmalar Mərkəzinin təmsilçisi Mehrin Qul bildirib ki, müharibə nəticəsində misli görünməmiş dağıntılardan zərər çəkən Qarabağın inkişafı bütövlükdə regionun inkişafına xidmət edir.

Qeyd edək ki, "Xəzər Hövzəsi Araşdırmaları Proqramı"nın 21 iştirakçısından 19-u ölkəmizə ilk dəfə səfər edib.

# Qlobal təşəbbüslər müəllifi

## Prezident İlham Əliyevin əməkdaşlıq və həmrəyliyə xidmət edən təşəbbüsləri beynəlxalq səviyyədə təqdir edilir

*Əvvəli 1-ci səh.*

Bu gün Azərbaycanın iştirakı olmadan bölgədə hər hansı beynəlxalq layihənin reallaşması qeyri-mümkündür. Şərqdən qərbə, şimaldan cənuba gedən ən qısa yollar Azərbaycandan keçdiyi üçün əksər beynəlxalq layihələr ölkəmizin razılığı əsasında gerçəkləşir.

Avrasiyanın mühüm nəqliyyat-tranzit qovşağı olan Azərbaycanın reallaşdırdığı və qoşulduğu beynəlxalq enerji layihələri ölkəmizə siyasi və iqtisadi dividendlər qazandırır. İndi Cənubi Qafqazda ən böyük investisiya layihələrinə sahib olan Azərbaycandır. Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum, Bakı-Tbilisi-Qars, "Cənub qaz dəhlizi" kimi milyardlarla investisiya yatırılan layihələr, eləcə də tezliklə açılacaq Zəngəzur dəhlizi ölkəmizin nəyə qadir olduğunu sübuta yetirir.

### İnsan sağlamlığı, bərabərlik və həmrəylik

İlham Əliyev həmçinin qlobal səviyyədə insanların sağlamlığının qorunması naminə irəli sürdüyü təşəbbüslərlə dünya siyasətçiləri arasında xüsusi fərqlənir. Dövlət başçısının qlobal təşəbbüsləri dünya ölkələri tərəfindən təqdir edilir.

Qoşulmama Hərəkatına sədrlik edən Azərbaycan Prezidentinin qlobal pandemiya ilə mübarizə tədbirləri çərçivəsində irəli sürdüyü təkliflərə nəzər yetirsək görərik ki, İlham Əliyev ümumbəşəri bəlaya qarşı ən effektiv mübarizənin birgə əməkdaşlıqdan keçdiyini söyləmişdi.

Ötən ilin aprel ayında İlham Əliyevin təşəbbüsü ilə Türk Dövlətləri Təşkilatının (Türk Şurasının) koronavirusla mübarizəyə həsr olunmuş Zirvə görüşü keçirildi. İlham Əliyevin pandemiyaya qarşı mübarizənin ilk günlərindən irəli sürdüyü "Biz birlikdə güclüyük!" çağırışı birinci dəfə bu Zirvə görüşü zamanı qlobal çevrədə öz real ifadəsini tapdı.

2020-ci il mayın 4-də Qoşulmama Hərəkatının Təmas Qrupunun koronavirusla mübarizəyə həsr edilmiş Zirvə görüşündə İlham Əliyev BMT Baş Assambleyasının dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyasının keçirilməsini təklif etmişdi. Bu təşəbbüsü Qoşulmama Hərəkatına üzv olan 120 ölkə, o cümlədən BMT-nin 150-dən çox üzv dövləti dəstəklədi. Dekabrın 3-də Nyu Yorkda BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş dövlət və hökumət başçıları səviyyəsində xüsusi sessiyası keçirildi.

Prezident İlham Əliyevin tapşırığı ilə Azərbaycanın Qoşulmama Hərəkatı adından BMT-nin İnsan Hüquqları Şurasında irəli sürdüyü "Bütün ölkələrin peyvəndlərə bərabər və universal çıxışının təmin edilməsi" adlı qətnamənin 2021-ci ilin martında yekdilliklə qəbul olunması da tarixi hadisə idi. Çünki bu, dünyada ayrı-seçkiliyi göstərən ilk çıxış idi. Bununla İlham Əliyev peyvənd millətçiliyinə və qeyri-bərabər, ədalətsiz paylanmaya qarşı dünyada həmrəyliyə çağırış edən ilk lider kimi tanındı.

Noyabrın 18-də BMT Baş Assambleyasının 76-cı sessiyası çərçivəsində assambleyanın üçüncü komitəsində Qoşulmama Hərəkatının sədri qismində İlham Əliyevin təşəbbüsü ilə QH üzvləri adından irəli sürülmüş "COVID-19 əleyhinə peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi" adlı qətnamə BMT-yə üzv dövlətlər tərəfindən qəbul edilib.

Qətnaməyə BMT-nin 126 üzv dövləti həmmüəllif qismində qoşulub. Kifayət qədər müfəssəl məzmunda olan qətnamədə digər məsələlərlə yanaşı, COVID-19 pandemiyasına qarşı mübarizə sahəsində həyata keçirilmiş bir sıra əhəmiyyətli qlobal təşəbbüslər, o cümlədən Azərbaycan Prezidentinin təklifi ilə 2020-ci il dekabrın 3-4-də keçirilmiş BMT Baş Assambleyasının COVID-19-a qarşı mübarizəyə həsr olunmuş xüsusi sessiyası alqışlanır.

Sənəddə inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında COVID-19 əleyhinə peyvəndlərin bölgüsündə mövcud olan bərabərsizlikdən ciddi narahatlıq ifadə edilir və bunun Dayanıqlı İnkişaf Məqsədlərinin icrasına əngəl törədən başlıca amillərdən olduğu vurğulanır.

Göründüyü kimi, Azərbaycan Qoşulmama Hərəkatının sədri qismində COVID-19 pandemiyasına qarşı mübarizə naminə beynəlxalq səylərin səfərbər edilməsi sahəsində qlobal liderliyini davam etdirir. Azərbaycan artıq beynəlxalq səviyyədə koronavirus pandemiyasına qarşı mübarizə aparır. Beynəlxalq tədbirlərdəki çıxışları zaman Prezident İlham Əliyev pandemiyaya qarşı mübarizənin aparılması üçün dünyanı səfərbərliyə çağırır, vaksin millətçiliyinin yolverilməzliyi, inkişaf etmiş ölkələrlə inkişaf etməkdə olan ölkələr arasında peyvəndlərin bərabər paylanmaması ilə bağlı həyəcan təbili çalır.

Onu da xatırladaq ki, Azərbaycanın koronavirusla bağlı 30-dan çox ölkəyə humanitar və maliyyə yardımları etməsi, Ümumdünya Səhiyyə Təşkilatına 10 milyon ABŞ dolları məbləğində könüllü maliyyə ayırması, bu yaxınlarda dörd ölkəyə təmənnasız olaraq 150 min doza vaksin göndərməsi birbaşa dövlət başçısının təşəbbüsüdür.

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən, adını şanlı tariximizə Xilaskar Lider kimi yazdıran İlham Əliyev bu gün qlobal səviyyədə beynəlxalq əməkdaşlıq və təhlükəsizliyə mühüm töhfələr verir. Azərbaycan Prezidenti liderlik nümayiş etdirərək pandemiyaya qarşı mübarizədə də bəşəriyyət üçün çox önəmli ideyalarla çıxış edir. Bütün bunlar isə Azərbaycanın etibarlı tərəfdaş kimi nüfuzunu artırır, onun liderinin isə uzaqgörən, qlobal təşəbbüslər müəllifi olduğunu bir daha təsdiqləyir.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Azərbaycanın xarici işlər naziri Argentinanın səfiri ilə görüşüb

Xarici işlər naziri Ceyhun Bayramov Argentinanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunellanı diplomatik fəaliyyətinin bitməsi ilə əlaqədar qəbul edib.



AZƏRTAC xəbər verir ki, nazir Ceyhun Bayramov səfirin Azərbaycan-Argentina münasibətlərinin inkişafı istiqamətindəki səylərini yüksək qiymətləndirib və ona gələcək fəaliyyətində uğurlar arzu edib. Hər iki ölkənin beynəlxalq hüququn norma və prinsiplərinə hörmət mövqeyindən çıxış etdiyini bildirən nazir ikitərəfli münasibətlərin inkişafı ilə yanaşı, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı faydalı əməkdaşlığın mövcud olduğunu vurğulayıb.

Nazir səfir Serxio Osvaldo Perez Qunellanın Azərbaycan üçün tarixi bir dövrdə ölkəmizdə fəaliyyət göstərdiyini qeyd edib. O, Azərbaycan ərazilərinin işğaldan azad edilməsi ilə nəhayət ki, bölgədə davamlı sülh və əməkdaşlığın qurulması üçün fürsətin və yeni əməkdaşlıq imkanlarının yarandığını vurğulayıb və bu xüsusda Azərbaycanın beynəlxalq hüquq əsasında münasibətlərin normallaşdırılması və revanşizmin qəbuledilməzliyi ilə bağlı mövqeyini səsləndirib.

Argentina Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Serxio Osvaldo Perez Qunella diplomatik fəaliyyəti müddətində ona göstərilən dəstəyə görə təşəkkürünü bildirib. O, ölkələrimiz arasındakı münasibətlərin inkişafından, o cümlədən pandemiyaya rəğmən ticarət əlaqələrində artımın müşahidə edilməsindən məmnunluqla bəhs edib. Fəaliyyəti müddətində iki ölkənin iqtisadi əlaqələrinin genişləndirilməsi, habelə insanlar arasında təmasların yaradılmasına xüsusi önəm verdiyini söyləyən səfir ikitərəfli əlaqələrin bundan sonra da inkişaf etdirilməsində səyləri əsirgəməyəcəklərinə inam ifadə edib.

Tərəflər həmçinin iki ölkə arasında münasibətlərin inkişafı perspektivlərini müzakirə ediblər.

# Müdafiə naziri ASELSAN şirkətinin idarə heyətinin sədri ilə görüşüb

Noyabrın 23-də müdafiə naziri, general-polkovnik Zakir Həsənov Türkiyə Respublikasının ASELSAN şirkətinin idarə heyətinin sədri və baş direktoru Haluk Görgünün rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görüşdə general-polkovnik Zakir Həsənov ölkələrimiz arasında hərbi və hərbi-texniki əməkdaşlıq sahələrində müsbət addımlar atıldığını, dövlətlərimizin başçılarının dostluq və qardaşlıq münasibətlərinin Azərbaycan-Türkiyə əlaqələrinin bütün istiqamətlərdə genişlənməsində mühüm əhəmiyyətə malik olduğunu qeyd edib. Nazir Vətən müharibəsində istifadə edilən, ASELSAN şirkətinin istehsalı olan texniki avadanlığın yüksək keyfiyyətə malik olduğunu xüsusi vurğulayıb.

Görüşdə müasir döyüş əməliyyatlarının aparılmasının yeni üsul və metodları, həmçinin qoşunlarımızın texniki təchizatının daha da gücləndirilməsi məqsədilə iki qardaş ölkənin həyata keçirdiyi birgə layihələr müzakirə edilib.

Bildirilib ki, Azərbaycan Ordusunun dünyanın ən müasir silah və hərbi texnikası, o cümlədən qabaqcıl informasiya texnologiyaları ilə təchiz edilmiş, geniş rabitə sistemlərinə malik peşəkar ordu kimi inkişaf etdirilməsi qoşunlarımızın gizli, operativ idarəolunmasını, onların manevr imkanlarının, ümumilikdə isə döyüş qabiliyyətinin artırılmasını təmin edəcək.

# Azərbaycanın və Koreya Respublikasının statistika komitələrinin əməkdaşlıq perspektivləri müzakirə olunub





Noyabrın 23-də Dövlət Statistika Komitəsinin (DSK) sədri Tahir Budaqov Koreya Respublikası Statistika Komitəsinin sədr müavini Kvanq Sup Kimin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

DSK-dan AZƏRTAC-a bildirilib ki, görüşdə Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 11 fevral tarixli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsi ilə Koreya Statistika Komitəsi arasında statistika sahəsində əməkdaşlıq haqqında Anlaşma Memorandumu"ndan irəli gələn məsələlər, o cümlədən 2018-ci ildə Koreya Statistika Komitəsinin dəstəyi ilə yaradılmış "Azərbaycanın Statistik İnformasiya Xidməti - ASİS"in təkmilləşdirilməsi, inzibati məlumatların idarə olunması, elektron təlim portalının hazırlanması ilə bağlı 2021-ci ildə görülmüş işlər haqqında məlumat verilib, gələcək əməkdaşlıq perspektivləri müzakirə edilib.

Rəsmi statistika sahəsində son illər Azərbaycanda həyata keçirilən islahatlar barədə məlumat verən komitə sədri qeyd edib ki, statistik məlumatların istehsalı, xüsusilə məlumatların yayımı prosesində daha üstün təcrübəyə malik Koreya Statistika Komitəsi ilə əməkdaşlıq DSK üçün yeni imkanlar yaratmış, rəsmi statistika sistemində vahid platforma üzərində metaməlumatlarla müşayiət olunan məlumat bazalarının yaradılması, onların müasir yayım standartlarına uyğun istifadəçilərə təqdim olunması məqsədilə Azərbaycanda ASİS-in yaradılaraq istifadəyə verilməsi və onun inkişafı mühüm əhəmiyyətə malikdir. O, əvvəlki illərdə həyata keçirilmiş layihələr üzrə nəzərdə tutulan tədbirlərin, eləcə də Dövlət Statistika Komitəsində təlim otağının yaradılmasının, statistik təlim modullarının hazırlanmasının, Koreyada komitənin 30-dan çox əməkdaşına təlimlərin keçirilməsinin Azərbaycanda statistik kadr potensialının gücləndirilməsinə müsbət təsir göstərdiyini diqqətə çatdırıb, hazırkı memorandumda qarşıya qoyulmuş vəzifələrin də uğurla icra olunacağına əminliyini ifadə edib.

Səmimi görüşə görə Tahir Budaqova öz təşəkkürünü bildirən Koreya Statistika Komitəsi sədrinin müavini Kvanq Sup Kim qurumlar arasında münasibətlərin səmərəli əməkdaşlıq ruhunda qurulduğunu vurğulayıb.

# QHT-lərə Dövlət Dəstəyi Agentliyinin yeni təyin olunmuş icraçı direktoru kollektivə təqdim edilib

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin yeni təyin olunmuş icraçı direktoru Aygün Əliyeva kollektivə təqdim edilib.



Agentliyin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təqdimat Prezident Administrasiyasının məsul əməkdaşı, Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının sədr müavini Vüsal Quliyev tərəfindən həyata keçirilib.

A.Əliyeva ona göstərilən yüksək etimada görə təşəkkürünü bildirərək, ölkədə vətəndaş cəmiyyətinin inkişafı sahəsində qarşıya qoyulan hədəflərin layiqincə yerinə yetirilməsi üçün əlindən gələni əsirgəməyəcəyini qeyd edib.

Qeyd edək ki, noyabrın 23-də Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının qərarı ilə A.Əliyeva agentliyin icraçı direktoru vəzifəsinə təyin olunub.

**İstənilən sahədə inkişafa nail olmağın əsas yolu islahatlardan keçir. Azərbaycanın artıq 30 ili geridə qalmış müstəqillik tarixində əldə olunmuş nailiyyətlər aparılmış islahatların labüdlüyünün və uğurlu nəticəsinin ən mükəmməl nümunələridir. İstər Ulu Öndər Heydər Əliyevin respublikamıza rəhbərliyi, istərsə də son 18 ildə Prezident İlham Əliyevin hakimiyyəti dövründə ardıcıl və sistemli islahatların reallaşdırılması inkişafa təkan vermişdir.**

# Zəfərin mərhəmət təntənəsi

## Prezident İlham Əliyevin təşəbbüsü ilə reallaşan növbəti amnistiya cəmiyyətdə humanizm ənənələrinin möhkəmlənməsinə böyük töhfə verir

### Ulu Öndər Heydər Əliyev müstəqillik dövründə ilk hüquqi islahatların banisidir

Təcrübə göstərir ki, dövlətin və cəmiyyətin inkişafını şərtləndirən amillər arasında mütərəqqi hüquq sisteminin və qanunların aliliyinin təmin olunmasının böyük rolu var. Başqa cür desək, zamanla ayaqlaşmayan və ya tələbləri kobud şəkildə pozulan hüquq sistemi heç vaxt dövlətin yüksəlişinə töhfə verə bilməz. Təsadüfi deyil ki, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra qarşıda duran əsas vəzifələrdən biri ölkənin keçmiş sovetlər birliyindən miras qalmış hüquq sisteminin müasir dövrün tələblərinə uyğunlaşdırılması idi.

Yalnız 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi bütün sahələrdə olduğu kimi, ölkənin hüquq sistemində də müasir çağırışlara uyğunlaşmanın əsasını qoydu. Bu baxımdan müstəqil, müasir Azərbaycanda hüquq sisteminin formalaşdırılmasının və inkişafının banisi Ümummilli Lider Heydər Əliyevdir. Müstəqillik tariximizə nəzər salsaq görərik ki, Heydər Əliyevin hakimiyyətə gəlişindən sonra həyata keçirilən dövlət quruculuğunun əsas tərkib hissəsi olan hüquqi islahatlar hər bir mərhələdə dövrün nəbzini tutmaqla həyata keçirilmişdir. Azərbaycan prokurorluğunun respublikamızın inkişaf çağırışlarına, demokratik yüksəlişinə, o cümlədən müasir idarəetmə standartlarına cavab verən orqan kimi yenidən formalaşması da Heydər Əliyevin dövlətçilik siyasəti, qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur. Xüsusilə qeyd edilməlidir ki, Ulu Öndərin müəllifliyi ilə hazırlanan və 1995-ci ildə qəbul edilən müstəqil Azərbaycanın ilk Konstitusiyası hakimiyyət bölgüsü prinsiplərini özündə ehtiva etməklə zamanın tələbi ilə səsləşən hüquqi islahatların həyata keçirilməsinə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinin keyfiyyətcə yeniləşməsinə və müasirləşməsinə yol açdı. Öz fəaliyyətində və səlahiyyətlərində qanunçuluğa, dövlətçiliyə xidməti əsas götürən, bitərəflilik, qərəzsizlik və obyektivlik kimi prinsiplərə sadiq olan prokurorluq tezliklə nüfuzlu orqan kimi fərqlənməyə başladı.

Heydər Əliyev prokurorluq işçilərinin peşə xüsusiyyətləri barədə danışarkən demişdir: "Mən arzu edirəm ki, hər bir prokurorluq işçisi öz peşəsinin hörmətini yüksək saxlasın, öz peşəsinin adını qorusun. O, öz peşəsinin adını qoruyacaqdır. Arzu edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və hər bir prokuroru cəmiyyətdə ən hörmətli, ən layiqli adam sayılsın". Ulu Öndərin bu müdrik fikirləri hər bir prokurorluq işçisinin yaddaşına həkk edilməklə, onları hər zaman öz fəaliyyətlərində qanunların aliliyini və etik prinsipləri qorumağa, peşəkarlıq keyfiyyətlərinə layiq olmağa və ədalətə sövq edir. Ölkə prokurorluğu çoxillik tarixə malik olaraq bir sıra onilliklər ərzində fəaliyyət göstərsə də, yalnız Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin qayğısı və diqqəti nəticəsində onun tərəfindən imzalanmış 17 iyul 1998-ci il tarixli sərəncama əsasən hər il oktyabr ayının 1-i prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunmağa başlamışdır. Peşə bayramı gününün təsis edilməsi prokurorluğa böyük qayğının ifadəsi olmaqla yanaşı, prokurorluq əməkdaşlarının fəaliyyətinin layiqincə dəyərləndirilməsinin təzahürüdür.

### Hüquqi islahatlar davamlı və sürətlidir

Ötən 18 ildə Azərbaycanın sürətli inkişafını təmin edən Prezident İlham Əliyev idarəçiliklə və hüquq sistemində aparılan islahatlar çərçivəsində prokurorluq orqanlarına da xüsusi diqqətlə yanaşmışdır. Zamanın ruhuna, yeni reallıqlara uyğun olaraq həyata keçirilən bu cür islahatlar nəticəsində prokurorluq orqanlarının statusunda, səlahiyyətlərində və fəaliyyətində köklü dəyişikliklər baş vermiş, kadr siyasətində ciddi dönüşün yaradılması və şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir.

Azərbaycan Prezidenti İlham Əliyevin 16 iyun 2020-ci il tarixli sərəncamına əsasən, prokurorluq orqanlarının cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşması, fəaliyyətində şəffaflığın təmin edilməsi, işin çevikliyinin və səmərəliliyinin artırılması, müasir dövrün tələblərinə cavab verən peşəkar kadrların formalaşdırılması məqsədilə Baş Prokurorluğun yeni strukturu təsdiq olunmuşdur. Bu əsasda Baş Prokurorluğun strukturu mahiyyətcə tamamilə yenidən qurulmuş, daha çevik, mobil və dinamik idarəetməyə malik idarələr təsis edilmişdir. Onu da qeyd etmək istərdim ki, dövlət başçısının siyasi iradəsinə uyğun olaraq prokurorluq orqanlarında reallaşdırılan və yeni dövrün çağırışlarından irəli gələn tam və hərtərəfli islahatların uğurlu nəticələr verməsi baş prokuror Kamran Əliyevin fəaliyyətində xüsusi diqqət yetirdiyi məsələdir. Prokurorluq orqanlarında sağlam iş mühitinin təmini, düzgün kadr siyasətinin həyata keçirilməsi, fəaliyyətimizin hər bir məqamında qanunçuluq və dövlətçilik prinsiplərinin qorunması xüsusi diqqət mərkəzində saxlanılır.

"Penitensiar sahədə fəaliyyətin təkmilləşdirilməsi, cəza siyasətinin humanistləşdirilməsi və cəmiyyətdən təcridetmə ilə əlaqədar olmayan alternativ cəza və prosessual məcburiyyət tədbirlərinin tətbiqinin genişləndirilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamının icrası ilə əlaqədar hökm və məhkəmənin digər yekun qərarlarının icrası ilə bağlı əhəmiyyətli işlər görülmüşdür.

Bu sahədə Baş Prokurorluğun əsas səlahiyyətli qurumu olan yeni təsis edilmiş Cinayət təqibindən kənar icraatlar idarəsi fəaliyyət göstərdiyi qısa müddət ərzində qarşıya qoyulan vəzifələri həyata keçirməyə çalışmışdır. Fəaliyyət göstərdiyi qısa müddət ərzində məhkəmə hökm və ya digər yekun qərarlarının icrası qaydasında baxılan işlər üzrə dönüşə nail olunmuşdur.

Bütövlükdə, prokurorluq orqanlarında son 1 il ərzində aparılmış mütərəqqi islahatlar sağlam iş mühitinin qurulması, dövlətçilik və qanunçuluq prinsiplərinə hörmətin möhkəmlənməsi, nəticədə cəmiyyətimizdə bu orqana ictimai etimadın artması və onun nüfuzunun yüksəlməsi ilə nəticələnmişdir. Qısa müddətdə görülmüş işlər həm də onu göstərir ki, islahatlar davamlı və sürətlidir. Prokurorluq orqanları Prezident İlham Əliyevin respublikamızın yüksəlişinə xidmət edən siyasi kursunun uğurla reallaşmasına, cəmiyyətdə qanunçuluğun, ictimai-siyasi sabitliyin, əmin-amanlığın, hər kəsin hüquq və mənafeyinin qorunmasına əzmlə xidmət edirlər.

### Məhkum olunmuş şəxslərə yeni şans verilməsi nümunəvi ənənəyə çevrilib

Respublikamızda insan hüquq və azadlıqlarının yüksək səviyyədə qorunması, eləcə də vətəndaşların layiqli həyat səviyyəsinin təmin edilməsi daim diqqət mərkəzində saxlanılmaqla dövlətimizin ali məqsədidir. Bununla yanaşı, dövlət səviyyəsində humanizm prinsiplərinə xidmət edən xeyirxah tədbirlərin həyata keçirilməsi, cəzasının müəyyən bir hissəsini çəkən və törətdiyi əməldən peşmançılıq keçirən məhkum olunmuş şəxslərin əfv edilməsi, bağışlanması, onlara yeni şans verilməsi artıq uzun illərdir ki, ənənəyə çevrilib.

Bu ənənənin təməlini qoyan Ulu Öndər Heydər Əliyev əfvetmə institutunu yaratmış, onun təşəbbüsləri ilə bu sahədə bir sıra tədbirlər həyata keçirilmişdir. Ümummilli Lider Heydər Əliyevin siyasi hakimiyyətə gəlişindən sonra ölkəmizdə qanunçuluğun təmin olunması ilə yanaşı, humanizm prinsiplərinə əsaslanan çoxsaylı tədbirlər həyata keçirilmiş, o cümlədən əfv və amnistiya təsisatlarının bərpa edilməsi ilə bağlı ən qəti addımlar atılmışdır. Ulu Öndər tərəfindən 1995-2003-cü illərdə 32 əfv fərmanı imzalanmış və bu, 3 mindən artıq məhkuma şamil olunmuşdur.

Ümummilli Liderin qanunvericilik təşəbbüsü əsasında Milli Məclis tərəfindən 1996-2003-cü illərdə 7 dəfə amnistiya elan edilmiş, 21 mindən çox məhkum azadlığa buraxılmışdır. Ümumilikdə 78 mindən artıq məhkuma bu amnistiya aktları şamil olunmuşdur. Bu humanist addımlar ciddi tərbiyəvi əhəmiyyət daşımış, ölkədə cinayətkarlığın səviyyəsinin daha da azalmasını təmin etmişdir.

Heydər Əliyevin şəxsiyyətini dahi insan, əsl lider kimi xarakterizə edən ən mühüm keyfiyyətlərdən biri də onun humanistliyi, cinayət törətmiş və bu əməlindən səmimi peşmançılıq keçirən şəxsləri bağışlaması idi.

Azərbaycanda bərqərar olan humanizm siyasətinin nəticəsi olaraq ölkəmizdə ölüm hökmü aradan qaldırılmışdır. Respublikamızın adı Şərqdə ilk olaraq bu cəzanı ləğv edən ölkə kimi tarixə düşmüşdür. Əvvəlcə 1993-cü ildə ölüm hökmü üzərində moratorium qoyulmuş, 1998-ci ildə isə bu cəza tamamilə ləğv edilmişdir.

Azərbaycan dövlətçiliyinin qüdrətlənməsinə, ölkənin sosial-iqtisadi inkişafına xidmət edən siyasi kursun uğurla həyata keçirilməsinin nəticəsi olaraq respublikamız bütün sahələrdə böyük tərəqqiyə nail olmuş, dünya birliyində öz yerini möhkəmləndirmişdir. Eyni zamanda humanizm siyasəti ənənələrinə böyük önəm verilməsi Prezident İlham Əliyevin fəaliyyətinin əsas istiqamətlərindən biri kimi daim diqqəti cəlb edir. Humanizm siyasətini davam etdirən Prezident İlham Əliyev əfvetmə institutunun çevik və işlək mexanizm əsasında fəaliyyətini təmin etmiş, hər zaman mərhəmət, insanpərvərlik və humanizm məfkurəsinə önəm vermişdir.

Törətdiyi cinayət əməlindən səmimi peşmançılıq keçirən, azad cəmiyyətə və normal həyata qovuşmaq istəyən məhkumların əfvlə bagli müraciətlərini nəzərə alan dövlət başçısı bayram və əlamətdar günlərdə imzaladığı əfv sərəncamları ilə onların bir qismini cəzalarının çəkilməmiş hissəsindən tam azad etmişdir. Ümumilikdə, Prezident İlham Əliyev indiyədək 35 əfv sərəncamı imzalamış və 5672 nəfəri əfv etmişdir. Azadlığın cəmiyyətin ən ümdə və zəruri şərti olduğunu dəfələrlə vurğulayan Prezident İlham Əliyev əfv sərəncamları ilə cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə xüsusi önəm verdiyini, şəxsi cəmiyyətdən təcrid etmədən islah etmənin daha səmərəli olduğunu göstərmişdir.

Ölkəmizdə tətbiq olunan bu humanizm aksiyalarının uğurla reallaşmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın da fəal iştirakı, mühüm töhfələri, mərhəmətli vətəndaş yanaşması xüsusi əhəmiyyət kəsb etmişdir. Heydər Əliyev Fondunun prezidenti, o zaman Milli Məclisin deputatı olan Mehriban xanım Əliyevanın təşəbbüsü ilə 2007-2016-cı illərdə Azərbaycanda 4 dəfə amnistiya elan edilmişdir.

Möhtərəm Mehriban xanım Əliyevanın müəllifi olduğu layihələri dəstəkləyən Milli Məclis tərəfindən 2007-ci ildə "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş amnistiya haqqında", 2009-cu ildə "Novruz bayramı münasibətilə amnistiya elan edilməsi haqqında", 2013-cü ildə "Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 90 illik yubileyi münasibətilə amnistiya elan edilməsi haqqında" və 2016-cı ilin mayında 28 May - Respublika Günü münasibətilə amnistiya elan edilməsi haqqında qərarlar qəbul edilmişdir.

Mehriban xanım Əliyevanın bu yüksək nəciblik təşəbbüsünün nəticəsi olaraq, 40412 nəfər məhkum müxtəlif növ cəzalardan azad edilmişdir. Hər zaman humanizm məfkurəsindən çıxış edən Azərbaycanın Birinci vitse-prezidentinin bu təklifləri cəmiyyətimizin əhvali-ruhiyyəsini daha da canlandırmış, minlərlə ailəyə sevinc bəxş etmişdir.

### Zəfər amnistiyası cəmiyyətimizin sevinc ovqatını daha da artırdı

Ötən ilin Vətən müharibəsində Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 ilə yaxın işğal altında olan torpaqlarımızı cəmi 44 günə azad etdi. Bu Zəfər müstəqillik tariximizin ən böyük hadisəsi və hərbi uğuru kimi hər birimizə dərin qürur hissi yaşatdı. "Dəmir yumruq" əməliyyatı adı ilə Azərbaycanın yeni tarixinə qızıl hərflərlə yazılan Zəfər müstəqil Azərbaycan dövlətinin hərbi qüdrətinin, iqtisadi gücünün nümayişi ilə yanaşı, xalqımızın qələbə əzminin əyani təsdiqi oldu.

Bu günlərdə xalqımız Vətən müharibəsindəki Qələbənin birinci ildönümünü böyük təntənə ilə qeyd etdi. Prezident İlham Əliyevin təşəbbüsü ilə Milli Məclis tərəfindən noyabrın 5-də "8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" qərarın qəbul edilməsi isə cəmiyyətimizin bayram və sevinc ovqatını daha da yüksəltdi.

Bu amnistiya aktını xarakterizə etmək üçün onun üstünlük verdiyi, istisna etdiyi və məhdudlaşdırdığı şəxslərə diqqət yetirmək lazımdır.

Aktın birinci maddəsi ilə dövlət qarşısında xüsusi xidmətləri olan şəxslər və onların yaxın qohumları, əhalinin həssas, xüsusi qorunmaya ehtiyacı olan təbəqəsinə, Ermənistanın işğalçılıq siyasətindən əziyyət çəkən qruplara daxil olan şəxslər barəsində hüquqi güzəştlərin tətbiq edilməsi müəyyən edilmişdir. Bu qruplardan olan şəxslərə Vətən müharibəsində və vətənimizin bütövlüyünün qorunması uğrunda aparılan digər döyüş əməliyyatlarında iştirak etmiş, xüsusilə orden və medallar ilə təltif olunmuş, həlak olmuş şəxslərin, həmçinin xəbərsiz itkin düşmüş və əlil olmuş şəxslərin yaxın qohumları, Ermənistanın etnik təmizləmə, terrorçuluq və soyqırımı siyasəti, o cümlədən işğal nəticəsində zərərçəkmiş şəxslər, əhalinin digər həssas təbəqə və qruplarına, o cümlədən qadınlar, on səkkiz yaşına çatmamış və altmış yaşına çatmış şəxslər aiddir.

Məhkum edilmiş və cəza çəkən, eyni cinayət törətmiş şəxslərin hüquqi statusu ilə yanaşı, təyin edilmiş cəzaların növünə, həddinə, cinayətlərin təsnifatına əsasən amnistiya aktının tətbiq dairəsinin müəyyən edilməsi də nəzərdə tutulmuşdur. Bu meyarlara misal olaraq göstərmək olar ki, böyük ictimai təhlükə törətməyən, yəni iki ildən artıq olmayan müddətdə azadlıqdan məhrum etmə cəzası və ya daha yüngül cəzalar nəzərdə tutulmuş cinayətlərə görə məhkum edilmiş bütün şəxslər, cəzasının bir hissəsini çəkmiş və çəkilməmiş cəzası bir ildən az olan məntəqə tipli cəzaçəkmə müəssisəsində cəza çəkən şəxslər, ehtiyatsızlıqdan törədilmiş cinayətlərə görə 3 ilə qədər müddətə azadlıqdan məhrum etmə cəzasına məhkum edilmiş, cəzasının çəkilməmiş hissəsi 6 aydan artıq olmayan məhkumlar, islah işləri və ictimai işlər cəzalarına məhkum edilmiş bütün məhkumların cəzaların çəkilməmiş hissəsindən azad edilməsi nəzərdə tutulmuşdur.

Cərimə cəzasına məhkum edilmiş şəxslərlə bağlı təşviqedici norma müəyyən edilmişdir. Belə ki, digər cəzalara məhkum edilmiş şəxslərdən fərqli olaraq cərimə cəzasına məhkum edilmiş şəxslər amnistiya aktının təbiqi dövründə cərimə cəzasının bir qismini ödəməklə cəzanın digər hissəsində azad edilə bilərlər. Ümumilikdə, yuxarıda qeyd edilən şərtlər də daxil olmaqla cərimə cəzasının ödənilməmiş hissəsi 2000 manatdan çox olmayan şəxslər aktın təsir dairəsinə düşür.

Azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslərin də böyük əksəriyyəti amnistiya aktının tətbiq sferasına aiddir. Belə ki, bu cəzaya məhkum edilmiş şəxslər cəzanın çəkilməmiş hissəsi 1 ildən az olduqda cəzadan azad edilir, 1 ildən çox olduqda isə cəza 1 il azaldılır.

Əsas cəza növləri ilə yanaşı, əlavə cəzalara da məhkum edilmiş şəxslərdən yalnız müəyyən vəzifə tutma və ya müəyyən fəaliyyətlə məşğul olma hüququndan məhrum etmə cəzasına məhkum edilmiş şəxslərə amnistiya tətbiq olunur. Digər əlavə cəzalara, məsələn, nəqliyyat vasitəsini idarəetmə hüququndan məhrum etmə cəzasına isə şamil olunmur.

Hazırkı amnistiya aktını digərlərindən fərqləndirən əsas amillərdən biri cəzadan azad edilmiş bir sıra məhkumların məhkumluqlarının da götürülməsidir. Belə ki, ağır və xüsusilə ağır cinayətlərə görə məhkum edilmiş şəxslər istisna olmaqla digər şəxslər cəzadan tamamilə azad edildikləri halda məhkumluqları da götürülmüş hesab edilir.

Amnistiyanın tətbiqi ilə əlaqədar bir sıra məhdudiyyətlər də müəyyən edilmişdir. Bu məhdudiyyətlər sırasına xüsusilə ağır cinayətlər, yəni cəza qismində on iki ildən çox azadlıqdan məhrum etmə nəzərdə tutulmuş əməllər, yaxud əvvəllər ağır cinayətlər, yəni yeddi ildən çox azadlıqdan məhrumetmə ilə cəzalandırılan əməl törətmiş şəxslər daxildir. Bundan başqa, sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən, 1990-cı il yanvarın 19-20-də Bakı şəhərinə sovet qoşunlarının qanunsuz yeridilməsi ilə əlaqədar törədilmiş cinayətlərdə, Xocalı soyqırımının baş verməsində, Azərbaycan Respublikası torpaqlarının erməni silahlı qüvvələri tərəfindən işğal edilməsində təqsirli olan şəxslər haqqında amnistiya tətbiq olunması qadağan edilmişdir.

Beynəlxalq öhdəliklərə uyğun olaraq korrupsiya cinayətlərinə amnistiya aktının tətbiqi olduqca məhduddur. Narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə və mülkiyyət əleyhinə olan cinayətləri törətmiş şəxslərə aktın tətbiqi yalnız məhdud şəkildə qalmış cəzadan azad edilməsi halında mümkündür. Məhdudiyyətlər sırasında alkoqolizmdən, narkomaniyadan və ya zöhrəvi xəstəliklərdən məcburi müalicə təyin olunmuş şəxslərlə bağlı hallar da vardır. Bu qəbildən olan şəxslər barəsində 4 ay müddətində amnistiya tətbiq edilməli, lakin həmin şəxslərin cəzadan azad edilməsi məsələsi isə müalicə başa çatdıqdan sonra həll edilməlidir.

### Prokurorluq orqanları tərəfindən zəruri tədbirlər həyata keçirilir

"8 Noyabr - Zəfər Günü münasibətilə amnistiya elan edilməsi haqqında" Milli Məclisin qərarının icrası ilə əlaqədar prokurorluq orqanlarının vəzifələrinin müəyyən edilməsi məqsədilə baş prokuror tərəfindən 5 noyabr 2021-ci il tarixdə müvafiq əmr imzalanmışdır. Əmrin məqsədi prokurorluğun rəhbər heyəti tərəfindən amnistiya aktının təxirə salınmadan və düzgün icra olunması təmin edilməklə, icra zamanı ortaya çıxan məsələlərin operativ həll edilməsi, prokurorluğun fəaliyyətinin digər orqanlarla, o cümlədən amnistiyanı tətbiq edən müvafiq qurumlarla əlaqələndirilməsi üçün zəruri tədbirlər görülməsi olmuşdur.

Hazırkı amnistiya aktının müxtəlif cəzalara məhkum edilmiş və cəza çəkən şəxslərlə yanaşı, istintaq və məhkəmə baxışı prosesində olan şübhəli və təqsirləndirilən şəxslərə, həmçinin cinayət işi başlanmamış və barəsində cinayət təqibi aparılan şəxslərə şamil edilməsi nəzərdə tutulmuşdur.

Azərbaycan Respublikası Konstitusiyası və "Prokurorluq haqqında" Azərbaycan Respublikası qanununa əsasən prokurorluq orqanları törədilmiş və hazırlanan cinayətlər haqqında məlumatların yoxlanması, təhqiqat, istintaq, məhkəmə baxışı və hökm və ya digər məhkəmə qərarlarının icrası qaydasında icraatlarda iştirak edir, qanunla nəzərdə tutulmuş hallarda prosessual rəhbərliyi həyata keçirir.

Amnistiya aktına əsasən amnistiyanın tətbiq edilməsi cəzaçəkmə müəssisələrinə, intizam xarakterli hərbi hissənin və hərbi hissələrin komandanlığına, icra məmurları, təhqiqat və ya ibtidai istintaq orqanları və məhkəmələrə həvalə edilmiş, məhkəmələr istisna olmaqla qeyd edilən qurumlar tərəfindən qəbul edilmiş qərarların prokurorlarla razılaşdırılması, məhkəmələr tərəfindən işlərə baxılarkən isə prokurorların iştirakının təmin edilməsinin zəruriliyi müəyyən edilmişdir. Həmçinin Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin əməkdaşlarına "Penitensiar müəssisələrdə cəza çəkməkdən azad edilmiş şəxslərin sosial adaptasiyası haqqında" qanunda nəzərdə tutulmuş tədbirləri həyata keçirən müvafiq icra hakimiyyəti orqanlarına səlahiyyətləri daxilində kömək göstərilməsi tapşırılmışdır.

Qeyd edilənlər nəzərə alınmaqla amnistiya aktının şamil edildiyi işlərin böyük əksəriyyətini təşkil edən, məhkumların cəzadan azad edilməsi ilə əlaqədar işlərin koordinasiyası və qərarların qanuniliyinin yoxlanması, həmçinin prokurorluq da daxil olmaqla amnistiyanın tətbiqi həvalə edilmiş qurumlar tərəfindən statistik məlumatların toplanması və təhlili, yekun məruzələrin hazırlanması Baş Prokurorluğun yeni təsis edilmiş Cinayət təqibindən kənar icraatlar idarəsinə həvalə edilmişdir. İdarə tərəfindən aktın tətbiqi ilə əlaqədar məlumatlar mütəmadi olaraq qurumlardan tələb edilməklə ümumiləşdirilir, statistik məlumatlar təhlil edilir və müvafiq hallarda qəbul edilmiş qərarların qanunauyğunluğu yoxlanır.

Qeyd etmək lazımdır ki, amnistiya aktını əsas tətbiq edən dövlət qurumları, Ədliyyə Nazirliyinin Penitensiar Xidməti və Probasiya Xidməti tərəfindən işlərin yüksək səviyyədə qurulması, peşəkar əməkdaşlar tərəfindən qərarların hazırlanması və yoxlanması, eyni zamanda fəaliyyətin rəhbər və işçi səviyyələrində Baş Prokurorluqla qarşılıqlı əlaqəli şəkildə qurulması nəticəsində yaranmış problemlər sürətli şəkildə öz həllini tapır.

Amnistiya aktının prokurorluq orqanlarında vaxtında və dürüst icra olunmasının təmin edilməsi üçün baş prokuror tərəfindən imzalanmış qeyd edilən əmrin icrası məqsədilə Cinayət təqibindən kənar icraatlar idarəsinin əməkdaşları tərəfindən bu sahə üzrə fəaliyyət həvalə olunmuş tabe rayon (şəhər) prokurorlarının köməkçiləri ilə beş seminar keçirilmişdir. Seminarlarda prokurorluq orqanlarının əməkdaşları tərəfindən amnistiya aktının dərindən öyrənilməsi və təbliğinin zəruriliyi vurğulanaraq, onun humanist mahiyyətinin barələrində amnistiya tətbiq ediləcək şəxslərə izah olunması və gələcəkdə qanuna zidd hərəkətlərin yolverilməzliyi barədə onlarla fərdi söhbətlərin aparılmasının zəruriliyi diqqətə çatdırılmışdır.

Onu da xatırladım ki, seminarların gedişində qərarın icrası zamanı yarana biləcək məsələlər ətrafında hərtərəfli müzakirələr aparılaraq, amnistiyanın humanist mahiyyətinin barələrində amnistiya tətbiq ediləcək şəxslərə izah olunması, qərarı tətbiq edəcək dövlət orqanları ilə səmərəli əməkdaşlıq edilməsi prokurorluq əməkdaşlarının diqqətinə çatdırılmış və gələcəkdə qanuna zidd hərəkətlərin yolverilməzliyi barədə onlarla fərdi söhbətlərin aparılmasının zəruriliyi bildirilmişdir.

Qeyd olunan prosesdə müasir informasiya texnologiyaları geniş tətbiq olunur. Bunun sayəsində Cinayət təqibindən kənar icraatlar idarəsində məlumatlar operativ rejimdə toplanılaraq çoxsaylı meyarlar üzrə təhlil olunur. Təhlilin aparılması mümkün səhvlərin aradan qaldırılmasını və nəzarətin gücləndirilməsini, rəhbərliyin canlı vaxt rejimində görülən işin gedişatı barədə dəqiq məlumatlandırılmasını təmin edir.

Məlumatların rəqəmsallaşdırılması və təhlili Azərbaycan Respublikası Prezidentinin müvafiq sərəncamına əsasən "Elektron Prokurorluq" informasiya sisteminə keçid prosesində atılan addımlardan biridir, bir növ bu prosesin test rejimdə sınaqdan keçirilməsidir. Prokurorluq işçiləri cənab Prezidentin bu tapşırığına ruh yüksəkliyi və böyük həvəs göstərərək geniş müzakirələrlə qoşulmuş, mütərəqqi təkliflər irəli sürmüşlər. Əvvəlki dövrdə elektronlaşma və müasir texnologiyaların tətbiqində yaranmış durğunluğun aradan qaldırılması, prokurorluğun dövlət qurumları arasında öncül yerlərə çıxması üçün yüksək əzm vardır. Bu işin həyata keçirilməsi üçün ölkəmizin aparıcı mütəxəssisləri cəlb edilmişlər.

Aparılmış təhlillərə əsasən min beş yüzə yaxın məhkum barəsində amnistiya aktı artıq tətbiq edilmişdir. Təqdim olunan statistik rəqəmlər növbəti gün və aylarda dəyişəcək. Mövcud vəziyyətə əsasən, amnistiya aktının tətbiq olunduğu şəxslərin 70 faizi çəzaçəkmə müəssisələrinin, o cümlədən 18 faizi məntəqə tipli cəzaçəkmə müəssisələri, qalan hissəsi probasiya xidmətinin payına düşür, sonuncu sürətli templə artmaqdadır. Məhkumların 78 faizi Bakı, 8 faizi Salyan, 3 faizi Sumqayıt, qalanı isə bölgələrdə yerləşən cəzaçəkmə müəssisələrində cəzalarını çəkirdilər.

Cəzaçəkmə müəssisələrinə və cəzanı icra edən qurumlara gəldikdə amnistiyanın tətbiq olunduğu qadın və kişilərin göstəricisi tərs mütənasibdir. Amnistiya aktını məhkum qadınlar barəsində 75-25 faiz nisbətində əsasən probasiya orqanları tətbiq edirsə, kişilər barəsində amnistiya aktını tam əks nisbətdə və əsasən cəzaçəkmə qurumları tətbiq edir.

Amnistiyanın təsir dairəsinə daha çox 31-40 yaşlarında məhkumlar düşüblər. Kişilər arasında həmin yaş qrupu ümumi sayın 36, qadınlar arasında isə 33 faizini təşkil edir. Ümumi nəticədə isə bu göstərici 35 faizdən yüksəkdr. Sayına görə ikinci yeri 41-50 yaş qrupu təşkil edir.

18 yaşından 25 yaşınadək olan şəxslərin çəkisi ümumi halda 8 faiz təşkil etdiyi halda qadınlar arasında bu göstərici 5, kişilər arasında isə 6 faizə bərabərdir. Qadınlar arasında məhkumların say hesabı ilə bu, ən kiçik yaş qrupudur.

Amnistiyanın tətbiq olunduğu yaşı 60 yaşdan yuxarı olan şəxslərin göstəricisi 5 faizdir. Ümumi statistikada və kişilər arasında altmış yaşından yuxarı olan qrup amnistiya aktının tətbiq olunduğu ən az saylı yaş qrupudur. Onu da qeyd etmək lazımdır ki, akt qüvvəyə minənədək yetkinlik yaşına çatmamış şəxslərə də amnistiya artıq tətbiq olunmuşdur.

Bu günədək amnistiya beş xarici ölkənin vətəndaşlarına tətbiq olunmuşdur. Amnistiyanın tətbiq olunduğu məhkumların böyük əksəriyyətini az ağır və ya ilk dəfə ağır cinayət törətdiklərinə görə müəyyən müddətə azadlıqdan məhrumetmə cəzasının çəkilməmiş hissəsi altı aydan artıq olmayan şəxslər və islah işləri cəzasına məhkum edilmiş şəxslər təşkil edir. Onlar amnistiyanın tətbiq olunduğu məhkumların 78 faizini təşkil edir. Eləcə də azad edilmiş məhkumların hökmlərdəki əsas cəza növünün böyük əksəriyyətini, yəni 89 faizini müəyyən müddətə azadlıqdan məhrum etmə və islah işləri təşkil edir.

Cinayətlərin növlərinə gəldikdə gözlənildiyi kimi, mülkiyyət əleyhinə olan və narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə əlaqədar cinayətlərə görə məhkum edilmiş şəxslər azad edilmiş şəxslərin yarısından çoxdur. Bunlardan sonra amnistiya aktı əsasən hərəkət təhlükəsizliyi və nəqliyyat vasitələrinin istismarı qaydaları əleyhinə və həyat və sağlamlıq əleyhinə olan cinayətlər törətmiş şəxslərə tətbiq edilmişdir.

Amnistiya tətbiqi ilə cəzadan azad edilməsi müəyyən edilən məhkumların bir qismini də azadlığın məhdudlaşdırılması cəzasına məhkum edilmiş şəxslər təşkil edir. Bu cəzaya məhkum edilmiş şəxslərin cəzadan azad edilməsi və ya cəzalarının amnistiya aktına müvafiq qaydada azaldılması məhkəmələrə həvalə edilmişdir. Hazırda respublikanın bütün rayon və şəhərlərində yaşayan məhkumlar barəsində məhkumların yaşayış yeri üzrə fəaliyyət göstərən məhkəmələrin yorulmaz və çevik fəaliyyəti nəticəsində çoxsaylı məhkəmə qərarları qəbul edilmişdir ki, bu proseslərdə Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin əməkdaşları və rayon-şəhər prokurorluqlarının bu sahədə fəaliyyət göstərən prokuror köməkçiləri iştirak etmişlər.

***Tarixən ənənələrimiz belə olub ki, əfv edilən hər kəsə el ağsaqqalları, icmaların hörmətli üzvləri zamin durublar. Əgər əvvəlki amnistiya aktları xalqımızın tarixində əhəmiyyətli hadisələr baş verməsi münasibətilə qəbul edilirdisə, sonuncu humanizm aktı şanlı qələbəmizin yaddaşlara həkk olunmasına xidmət edir və azad olunan məhkumların zaminləri isə şəhidlərimizin ruhu və qazilərimizin qanıdır. Möhtərəm cənab Prezidentimizin növbəti humanizm siyasətinə şərəflə sadiq olmaq, bundan sonrakı həyat və fəaliyyətlərində düzgün nəticələr çıxarmaq, islah olunmaq amnistiyanın tətbiq edildiyi hər bir şəxsin borcudur.***

**Elnur MUSAYEV,**
*Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsinin rəisi, III dərəcəli dövlət ədliyyə müşaviri*

# Zəfərin təməli

## Gənc nəslin nümayiş etdirdiyi misilsiz vətənpərvərlik 30 illik işğalı 44 günə sonlandırdı

*Əvvəli 1-ci səh.*

### İgid əsgərlərimizin hərəsi bir qəhrəmanlıq dastanı yazdı

Ötən ilin 27 sentyabrında düşmənin növbəti təxribatı zamanı Vətənin harayına yer-yerdən hay verən oğullarımız ata-baba ocaqları Qarabağ uğrunda savaşmaq üçün müqəddəs yola çıxdıqları zaman da and içmişdilər ki, Xocalının, Şuşanın, Laçının, Kəlbəcərin, Zəngilanın, Füzulinin, Cəbrayılın, Ağdamın, bütünlükdə Qarabağımızın işğal günlərini zəfər günlərinə çevirməyənə qədər bu yolda öldü var, döndü yoxdur. Qəhrəman döyüşçülərimiz bu müqəddəs amalla daim irəlilədilər, qarış-qarış Vətən torpaqlarımızı cəmi 44 gün ərzində azadlığına qovuşdurdular. Müqəddəs torpaqlarımızdan düşmənin murdar ayağını kəsərək, üçrəngli Azərbaycan bayrağını işğaldan qurtulan yurdlarımızın ən hündür zirvələrində dalğalandırdılar.

Əsrlərə bərabər 44 gün ərzində öz şücaətləri ilə igid əsgərlərimizin hərəsi bir qəhrəmanlıq dastanı yazdı. Haqlı olmalarından, ana torpağa tükənməz sevgilərindən güc aldılar, çarpışdılar, vuruşdular. Bu yolda canlarını qurban verməkdən belə çəkinmədilər, şəhid, qazi oldular, bir öldülərsə, min dirildilər, yenə də düşmənə aman vermədilər.

Azərbaycanın düşmən üzərində qətiyyətli qələbə çalaraq öz ərazi bütövlüyünü bərpa etməsini şərtləndirən başlıca amil isə Prezident İlham Əliyevin ötən illər ərzində ordu quruculuğu, hərbi potensialımızın möhkəmləndirilməsi istiqamətində həyata keçirdiyi siyasət oldu. Bu illər ərzində ordumuzda güclü hərbi-texniki potensial yaradıldı, ən müasir silahlar, sursatlar, texnikalar ölkəmizə gətirildi. Ordumuzun döyüş qabiliyyəti böyük dərəcədə artırıldı, müntəzəm olaraq hərbi təlimlər, məşqlər keçirildi. Bütün bunların nəticəsində ordumuzun həm texniki təchizatı, həm mənəvi-psixoloji ruhu, həm də döyüş qabiliyyəti yüksək səviyyədə artırıldı. Ordu quruculuğu sahəsində görülən bütün işlərin əyani nəticəsi isə II Qarabağ müharibəsi zamanı bütün dünya qarşısında müvəffəqiyyətlə sərgiləndi.

### "Dəmir yumruğ"a çevrilərək düşmənin başını əzən mərd oğullar

Vətən torpaqlarımızın 30 illik əsarətdən azad edilməsində rol oynayan ən önəmli amillərdən biri isə gənc nəslin nümayiş etdirdiyi misilsiz vətənpərvərlik ruhu oldu.

Reallıqdır ki, hər nə qədər silah-sursat olsa da, iqtisadiyyat güclü olsa da, Vətən uğrunda döyüşməyi, çarpışmağı özünün müqəddəs borcu hesab etməyən vətəndaşlar yetişməzsə, bu imkanların hamısı faydasızdır.

Şuşada hərbçilər qarşısında çıxışı zamanı Prezident İlham Əliyev bildirdi ki, gənclər vətənpərvərlik ruhunda yetişərək öz canlarını fəda edib öz qanı bahasına düşmənin əlindən bizim müqəddəs torpaqlarımızı ala bildilər. Bütün bu faktorların vəhdəti bizim Qələbəmizi şərtləndirdi.

Bəli, məhz Azərbaycanın vətənpərvər övladlarının doğma yurdlarımız uğrunda nümayiş etdirdikləri şücaət, qəhrəmanlıq və fədakarlıq bizə əbədi Zəfər bəxş etdi.

"Dəmir yumruğ"a çevrilərək düşmənin başını əzən mərd oğullarımız indi də canla-başla torpaqlarımızın keşiyindədir və düşmənin ərazilərimizə qarşı istənilən hücumunun, təxribatının qarşısını almaq və önündə baş əydirmək, diz çökdürmək əzmindədirlər.

***Yasəmən MUSAYEVA, "Azərbaycan"***

# İŞİMİZ, GÜZƏRANIMIZ

## Ağdamda tarixi-mədəni abidələrin bərpasına başlanılır

Ermənilər işğal etdikləri digər rayonlarda olduğu kimi, Ağdamda da Azərbaycanın tarixi-mədəni irsinə qarşı görünməmiş vandalizm həyata keçiriblər. 30 ilə yaxın davam edən işğal zamanı xalqımıza məxsus tarixi, mədəniyyət və dini abidələr, qəbiristanlıqlar dağıdılıb, tarixi-mədəni təyinatına uyğun olmayan şəkildə istifadə edilərək vandalizmə məruz qalıb.

Ağdam şəhəri də olmaqla rayonun işğaldan azad edilmiş hissəsində Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov AZƏRTAC-a açıqlamasında bildirib ki, işğaldan azad edilmiş ərazilərdə aparılacaq quruculuq işləri çərçivəsində tarixi, mədəni və dini irsimizin də bərpası həyata keçiriləcək: "Hazırda İmarət kompleksi və Qiyaslı məscidinin restavrasiyası ilə bağlı layihələndirmə işləri aparılır. Bu işlərə həm yerli, həm də əcnəbi memarlar cəlb olunub. Plana əsasən İmarət kompleksində Pənahəli xanın sarayı, karvansara, hamam, türbələr, tribuna bərpa ediləcək, atlar üçün cıdır, axur və suvarma yeri yaradılacaq, ərazidə çinar və meyvə ağacları əkiləcək".

Ağdam şəhərində vandalizmə məruz qalan abidələrimizdən biri də Cümə məscididir. 1868-1870-ci illərdə memar Kərbəlayi Səfixan Qarabaği tərəfindən tikilən Ağdam Cümə məscidi ölkə əhəmiyyətli abidələr siyahısındadır. Bu məscid "Qarabağ məscid memarlığı" məktəbinə aiddir. Ermənilər tərəfindən dağıntılara məruz qalan Ağdam məscidinin minarələri daxildən sökülüb, tavanı bir neçə yerdən uçurulub, dizayn və yazıları bilərəkdən yararsız, tanınmaz vəziyyətə salınıb. Ağdam Cümə məscidində ermənilər mal-qara saxlamaqla azərbaycanlılara, müsəlman aləminə qarşı öz nifrətlərini nümayiş etdiriblər.

Emin Hüseynov qeyd edib ki, Ağdam Cümə məscidi həm tarixi, həm də mənəvi baxımdan xüsusi əhəmiyyət daşıyır. Artıq Heydər Əliyev Fondu tərəfindən məscidin restavrasiyası üçün hazırlıq işlərinə başlanılıb. İmarət kompleksi, Ağdam Cümə məscidi, Qiyaslı məscidi, Şahbulaq qalası və digər abidələrimiz bölgəni həm də turizm baxımından tanıdacaq.

## Sənaye zonalarında məhsul istehsalı artır

### İstehsal olunan məhsullar dünyanın 30-dan çox ölkəsinə göndərilib

**Sənaye zonaları ölkənin qeyri-neft sektorunun, innovativ və yüksək texnologiyalara əsaslanan rəqabətqabiliyyətli sənayenin inkişafında və əhalinin məşğulluq səviyyəsinin təmin edilməsində mühüm rol oynayır.**

İndiyədək sənaye zonalarında 89 sahibkarlıq subyektinə rezidentlik statusu verilib və bunlardan artıq 55-i fəaliyyətə başlayıb. Sahibkarlar tərəfindən bu günədək sənaye zonalarına 6,2 milyard manatdan çox investisiya yatırılıb və 9500-dək iş yeri yaradılıb. Mövcud layihələr üzrə növbəti mərhələdə sənaye zonalarına əlavə 400 milyon manat investisiyanın yatırılması və 2 minə yaxın iş yerinin yaradılması nəzərdə tutulur.

Sənaye zonaları üzrə indiyədək ümumilikdə 5 milyard manatlıq məhsul istehsal edilib ki, bunun 1,4 milyard manatı (təqribən 28 faizi) ixrac olunub.

Sənaye zonalarında məhsul istehsalı və ixracı istiqamətində müsbət dinamika müşahidə olunur. Statistik göstəricilərə əsasən, 2020-ci ilin 9 ayında sənaye zonalarında 977 milyon manatlıq məhsul istehsal edilmişdisə, 2021-ci ilin 9 ayında 56,7 faiz çox (1,5 milyard manatlıq) məhsul istehsal olunub. İxrac isə 2020-ci ilin analoji dövrü (269 milyon manat) ilə müqayisədə 102,6 faiz (2 dəfə) artaraq 545 milyon manat təşkil edib.

2021-ci ilin 9 ayında 1,5 milyard manatlıq məhsul istehsalı ilə sənaye zonalarının ölkə sənayesinin qeyri-neft sektorunda xüsusi çəkisi 14,2 faiz, qeyri-neft sənaye məhsullarının ixracında 25,9 faiz (545 milyon manat) olub.

Sənaye zonalarında istehsal olunan məhsullar dünyanın 30-dan çox ölkəsinə ixrac edilib.

Qeyd edək ki, sənaye zonalarında sahibkarlar üçün əlverişli investisiya mühiti yaradılıb. Belə ki, sənaye parklarının rezidentləri qeydiyyata alındıqları tarixdən 10 il müddətinə əmlak vergisindən, torpaq vergisindən, gəlir və ya mənfəət vergisindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 7 il müddətinə gömrük rüsumlarından azad olunurlar.

## Azərbaycan neftinin qiyməti 81 dolları ötüb




Azərbaycan neftinin qiyməti bahalaşıb. AZƏRTAC xəbər verir ki, "Azeri Light" markalı neftin bir barelinin qiyməti 1,18 dollar artaraq 81,57 dollar olub.

Xatırladaq ki, Azərbaycan neftinin bir barelinin bu il ərzində maksimum qiyməti oktyabrın 25-də (88,19) qeydə alınmışdı.



## Azərbaycan artıq təkcə neft-qaz ixrac edən ölkə deyil

### İxracda qeyri-neft məhsullarının dinamik artımı davam edir

**Ölkədə aparılan iqtisadi islahatların əsas məqsədlərindən biri qeyri-neft sektorunun davamlı inkişafına nail olmaqdır. Bu istiqamətdə həyata keçirilən tədbirlərin nə dərəcədə uğurlu olduğu həmin sektorda istehsal və ixrac olunan məhsulların həcmi ilə müəyyən edilir.**

İslahatlardan əvvəlki illərin statistikasına nəzər yetirdikdə görürük ki, o dövrdə ixrac olunan mallar əsasən xam neft və neft məhsulları idi. İndi bu sahədə başqa mənzərənin şahidi oluruq. Belə ki, ixracatda qeyri-neft sektoruna aid məhsulların həcmi və çeşidi ildən-ilə artır.

Buna səbəb son dövrlər ölkəmizdə sənaye parkları, məhəllələri və digər istehsal sahələri üzrə tikilən fabrik və zavodlarda istehsal olunan məhsullardır. Bu müəssisələr ən müasir texnika və texnologiyalarla təchiz olunub. Bu üzdən istehsal edilən məhsullar dünya bazarının tələblərinə cavab verir. Digər tərəfdən, bu zavod və fabriklərdə əsasən yerli xammaldan istifadə edildiyi üçün məhsulların maya dəyəri aşağı olur. Həmin imkandan istifadə edən yerli sahibkarlar dünya bazarına keyfiyyətli və münasib qiymətlərlə məhsul ixrac etmək imkanı qazanırlar. Belə hal dünya bazarında Azərbaycan məhsullarının rəqabətqabiliyyətliliyini də artırır.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin (İİTKT) cari ilin 9 ayının "İxrac icmalı"na görə, qeyri-neft sektoru üzrə 1,8 milyard dollar dəyərində məhsul ixrac olunub ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 525,3 milyon dollar çoxdur. Hesabat dövründə qeyri-neft ixracında meyvə-tərəvəz məhsulları 398,9 milyon dollarla əsas paya malik olub. Bununla yanaşı, ixracatda pambıq iplik 3,3, qara metallar və ondan hazırlanan məmulatlar 3,2, kimya sənayesi məhsulları 2,1, şəkər 2,1 dəfə artıb. Pambıq lifində 80,8, alüminium və ondan hazırlanan məmulatlarda isə 55,8 faiz artım qeydə alınıb.

2021-ci ilin yanvar-sentyabr ayları ərzində ixrac edilən qeyri-neft sektoruna aid malların siyahısında qızıl birinci olub. Bu siyahıda pambıq mahlıcı ikinci, pomidor (tomat) üçüncü yerdə qərarlaşıb. Digər yerlər ilkin formalı polipropilenlər, meşə fındığı, polimerləşmə nəticəsində əmələ gələn ilkin formalı digər maddələr, ilkin formalı polietilen (xüsusi kütləsi 0,94-dən çox), karbamid, metanol (metil spirti) məhsullarına məxsus olub.

Cari ilin yanvar-sentyabr ayları ərzində ən çox məhsul Rusiya Federasiyasına, Türkiyəyə, İsveçrəyə, Gürcüstana və ABŞ-a ixrac edilib. Daha sonrakı yerləri müvafiq olaraq Ukrayna, Braziliya, Çin, Belçika, Qazaxıstan tutur.

Normallaşma prosesinin davam etdiyi dövrdə sentyabr ayı üzrə ümumi ixrac 1,7 milyard dollar təşkil edib. Qeyri-neft sektoru üzrə ixracda artım 75,2 faiz təşkil etməklə 224,7 milyon dollar olub. 2021-ci ilin sentyabr ayı ərzində yeyinti məhsulları üzrə ixrac ötən ilin müvafiq ayı ilə müqayisədə 34,5 faiz artaraq 46,2 milyon dollar, qeyri-yeyinti məhsulları üzrə isə 90 faiz artaraq 178,5 milyon dollar təşkil edib.

2021-ci ilin yanvar-sentyabr ayları üzrə hazırlanan qeyri-dövlət ixracatçı subyektlərin reytinqində ilk onluqda aşağıdakı şirkətlər təmsil olunurlar: "MKT İstehsalat Kommersiya" MMC, "Azərbaycan İnterneyşnl Mayninq Kompani Limited Şirkəti"nin Azərbaycan Respublikasındakı Nümayəndəliyi, "Local Garden" Məhdud Məsuliyyətli Cəmiyyəti, "Baku Steel Company" MMC, "Sun Food" MMC, "P-Aqro" MMC, "Azərbaycan Şəkər İstehsalat Birliyi" MMC, "RAM Beynəlxalq Nəqliyyat və Ticarət LTD" MMC, "Bulder 007 LTD" MMC.

Qeyri-neft sektoru üzrə ixrac əməliyyatlarında iştirak edən dövlətə məxsus olan şirkətlərin siyahısına isə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin "Marketinq və İqtisadi Əməliyyatlar İdarəsi" başçılıq edir. Daha sonra bu siyahıda aşağıdakı şirkətlər yer tutur: "Socar Polymer" MMC, "AzerGold" QSC, "Azəralüminium" MMC, "Azərpambıq Aqrar Sənaye Kompleksi" MMC, "Azərenerji" ATSC, "Azərbaycan Hava Yolları" QSC, "Azəripək" MMC, "Azərbaycan Dəmir Yolları" QSC, "Naxçıvan MR Dövlət Energetika Xidməti".

2021-ci ilin yanvar-sentyabr aylarında "Azərkosmos" ASC tərəfindən dünyanın 36 ölkəsinə 32,3 milyon dollar dəyərində xidmət (peyk telekommunikasiya xidmətləri və optik peyk xidmətləri) ixrac olunub. "Azərkosmos" ASC-nin xidmət ixracından əldə etdiyi gəlir onun ümumi gəlirlərinin 91 faizini təşkil edib. 2021-ci ilin sentyabr ayında isə "Azərkosmos" ASC tərəfindən dünyanın 26 ölkəsinə 1,5 milyon dollar dəyərində xidmət ixrac olunub.

2021-ci ilin yanvar-sentyabr ayları ərzində portala daxil olan ixrac sifarişlərinin ilk beşliyində 9,6 milyon dollarla ABŞ, 7,2 milyon dollarla Fransa, 6,6 milyon dollarla Birləşmiş Krallıq, 3,7 milyon dollarla Malayziya və 1,3 milyon dollarla BƏƏ qərarlaşıb.

2021-ci ilin yanvar-sentyabr aylarında Azexport.az portalına 367,6 milyon dollar dəyərində ixrac sifarişləri daxil olub. Sentyabrda Azexport.az portalına daxil olan ixrac sifarişlərinin dəyəri isə 43,2 milyon dollar təşkil edib. Həmin ay Azexport.az portalına ən çox ixrac sifarişi pambıq, xurma, nar şirəsi, fındıq ləpəsi, un, meyvə cemi, kərə yağı, qızılgül, qənnadı məhsulları, tütün, mühərrik yağı və s. mallara daxil olub. Məlumat üçün qeyd edək ki, 2017-ci ilin yanvar ayından 2021-ci ilin 30 sentyabr tarixinə qədər (57 ay ərzində) Azexport.az portalına dünyanın 145 ölkəsindən daxil olan ixrac sifarişlərinin dəyəri 2,59 milyard dollar təşkil edib.

"İxrac icmalı"nda həmçinin göstərilib ki, 2021-ci ilin oktyabr ayında "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsi ilə həyata keçirilən qeyri-neft ixracının dəyəri 23,3 milyon dollar olub. 2017-ci ildən 2021-ci ilin noyabr ayına qədər "Bir Pəncərə" İxraca Dəstək Mərkəzi vasitəsilə ixrac edilən mal və məhsulların dəyəri 665 milyon dollar təşkil edib.

*Rüstəm KAMAL,*
*"Azərbaycan"*

## Qarabağ Zəfərinin ildönümü münasibəti ilə İzmir vilayətində xatirə meşəsi salınıb

Azərbaycanın 44 günlük Vətən müharibəsində əldə etdiyi şanlı Zəfərin ildönümü münasibətilə "SOCAR Turkey Enerji A.Ş."(STEAŞ) tərəfindən Türkiyənin İzmir vilayətinin Aliağa rayonunda xatirə meşəsi salınıb.

AZƏRTAC xəbər verir ki, "Azərbaycan, Qarabağ xatirə meşəsi" Azərbaycanın müstəqilliyi uğrunda canından keçən qəhrəmanlarımızın xatirəsinin əbədiləşdirilməsinə xidmət edir.

Bu məqsədlə keçirilən mərasimdə çıxış edən "SOCAR Turkey Enerji A.Ş."nin (STEAŞ) baş direktoru Zaur Qəhrəmanov bildirib ki, 1991-ci ildə Azərbaycan öz müstəqilliyini bərpa etdikdə ölkəmizin yanında olan və müstəqilliyini tanıyan ilk ölkə Türkiyə oldu. Qırx dörd günlük Vətən müharibəsində də istər xalqı, istər başda Prezident Rəcəb Tayyib Ərdoğan olmaqla dövləti ilə bu haqlı savaşda Türkiyə yanımızda oldu və biz Zəfər qazandıq, Qarabağımızı qaytardıq. Xatirə meşəsində əkilən tinglərin Vətənimiz uğrunda canından keçən oğullarımızın xatirəsinin yaşadılması üçün əkildiyini deyən Z.Qəhrəmanov Azərbaycanla-Türkiyə arasındakı tarixi bağın heç bir vaxt qırılmayacağını vurğulayıb.

İzmirin meşələr üzrə bölgə müdiri Zafer Derince daima Azərbaycanın yanında olmaq və müstəqillik uğrunda canından keçən oğullarımızın xatirəsinin yaşadılması üçün yaradılan bu meşənin təxminən 467 hektar ərazidə salındığını, bu kampaniyanın davamı olaraq ərazidə ümumilikdə müxtəlif növ 170 min ağacın əkiləcəyini deyib.

Aliağa Bələdiyyəsinin sədri Serkan Acar və Aliağa kaymakamı Ömer Karaman Azərbaycanın müstəqilliyini əldə etdikdən sonra Vətən müharibəsinədək keçdiyi yol və ermənilər tərəfindən xalqımıza qarşı törədilən cinayətlər haqqında danışıb, bu tarixi Qələbə münasibətilə bütün türk dünyasını təbrik ediblər.

Sonra iştirakçılar tərəfindən 20 min ting əkilib.

## DGK-ya təhlükəsiz axtarış avadanlıqları hədiyyə olunub

Dövlət Gömrük Komitəsi (DGK) ilə Böyük Britaniyanın Sərhəd Mühafizəsi Direktoratlığının birgə həyata keçirdiyi "Hunter" layihəsi çərçivəsində Cənub Ərazi Baş Gömrük İdarəsinin Biləsuvar və Astara gömrük postlarının əməkdaşları üçün "Nəqliyyat vasitələrinin axtarışı" mövzusunda britaniyalı ekspertlərin iştirakı ilə təlimlər keçirilib.

DGK-dan verilən məlumata görə, təlimlərin keçirilməsində əsas məqsəd yük nəqliyyat vasitələrinin təhlükəsiz və effektiv şəkildə axtarışı üzrə Böyük Britaniya təcrübəsini bölüşməkdən ibarət olub.

Tədbirin açılışında çıxış edən Cənub Ərazi Baş Gömrük İdarəsinin rəisi Mirmahmud Miratayev Böyük Britaniyanın Sərhəd Mühafizəsinin nümayəndələrini salamlayaraq, "Hunter" layihəsi çərçivəsində həyata keçirilən təlimlərin gömrük əməkdaşlarının potensialının gücləndirilməsinə, sərhəd təhlükəsizliyinin təmin olunmasına dair fikir mübadiləsinin aparılmasına və yeni müasir texnologiyaların tətbiqi sahələri üzrə əməkdaşlığın inkişafına böyük töhfə verəcəyinə əminliyini ifadə edib.

İnteraktiv qaydada keçirilən təlim nəzəri və praktiki hissələrdən ibarət olub. Nəzəri məşğələlər zamanı şassinin və soyuducu qoşqunun konstruksiyası və komponent hissələri, treylerin növləri, tankerlərin tikintisinə dair məlumatlar verilib, tədbir iştirakçılarına nəqliyyat vasitələrinin konstruksiyalarına dair müxtəlif sənədlər paylanılaraq qrup şəklində fikir mübadiləsi aparılıb. Bundan əlavə, Böyük Britaniyanın mütəxəssisləri tərəfindən gizlətmə üsulları barəsində videogörüntülər nümayiş olunub.

Astara və Biləsuvar gömrük-sərhəd buraxılış məntəqələrində keçirilmiş praktiki məşğələlər zamanı britaniyalı ekspertlər tərəfindən gömrük əməkdaşlarına yük nəqliyyat vasitələrinin axtarışı ilə bağlı praktiki tapşırıqlar verilib. Eyni zamanda DGK ilə Böyük Britaniyanın Sərhəd Mühafizəsi Direktoratlığının birgə həyata keçirdiyi "Hunter" layihəsi çərçivəsində sözügedən təlimlərin bir hissəsi olaraq, Böyük Britaniyanın Sərhəd Mühafizəsi Direktoratlığının nümayəndələri tərəfindən komitəyə əvəzsiz olaraq təhlükəsiz axtarış avadanlıqları hədiyyə edilib və təlimlərdə iştirak edən əməkdaşlara sertifikatlar təqdim olunub.

Sözügedən təlimin noyabrın 24-25-də "Beynəlxalq Dəniz Ticarət Limanı" gömrük postunun əməkdaşları üçün davam etdirilməsi nəzərdə tutulur.

## "Şahdəniz"də daha bir quyu hasilata başladı



**"Şahdəniz" layihəsinin operatoru olan bp şirkəti bildirir ki, yatağın işlənməsinin ikinci mərhələsi çərçivəsində şimal cinahında beşinci quyudan hasilata başlanıb. Bu, cari ilin sonuncu rübü üçün planlaşdırılmış mühüm bir əməliyyat, eləcə də "Şahdəniz"dən təhlükəsiz və qrafikə uyğun şəkildə əldə edilmiş daha bir uğurdur.**

Yataqda "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformaları istismar olunur. "Şahdəniz-1" və "Şahdəniz-2"dəki bu qurğuların hasilat gücü hazırda gündə təxminən 70 milyon standart kubmetr, ildə 25 milyard standart kubmetrdən çoxdur. 2021-ci ilin iyul ayında ilk dəfə olaraq "Şahdəniz Bravo"dan gündəlik hasilat "Şahdəniz Alfa" ilə eyni səviyyəyə çatmışdır. İlin ilk üç rübündə yataqdan ümumilikdə - iki platformadan birlikdə təqribən 16 milyard standart kubmetr qaz və 3 milyon ton (təqribən 24 milyon barel) kondensat hasil olunmuşdur.

Xatırladaq ki, "Şahdəniz" yatağı 1999-cu ildə kəşf edilmişdir. Yataq Bakıdan təqribən 70 kilometr cənub-şərqdə yerləşir. Burada suyun dərinliyi 50 metrdən 600 metrədək dəyişir. Yatağın kollektor dərinliyi 1000 metrdən çoxdur, uzunluğu isə 22 kilometrdir. Bu, 140 kvadratkilometrdən artıq sahəsi və ilkin hesablamalara görə, təqribən 1 trilyon kubmetr mavi yanacaq və 2 milyard barel kondensat ehtiyatı ilə dünyanın ən böyük karbohidrogen yataqlarından biridir. Belə ki, 1997-2001-ci illərdə "Şahdəniz" strukturunda qazılmış kəşfiyyat və qiymətləndirmə quyuları burada dünya səviyyəli qaz-kondensat yatağının olduğunu təsdiq etmişdir.

Yatağın işlənməsi mərhələli şəkildə həyata keçirilir. 2003-cü ilin fevralında "Şahdəniz" üzrə tərəfdaşlar yatağın işlənməsinin birinci mərhələsinə razılıq verdilər. Həmin mərhələdə apstrim və midstrim infrastrukturunun inkişaf etdirilməsi, o cümlədən bir platformanın və onu Səngəçal terminalına birləşdirəcək boru kəmərlərinin inşası, həmçinin Gürcüstan ərazisindən keçməklə Azərbaycandan Türkiyə sərhədinədək yeni qaz ixracı sisteminin, yəni Cənubi Qafqaz Boru Kəmərinin (CQBK) inşası nəzərdə tutulurdu.

2006-cı ildə yataqdan kommersiya qaz hasilatı və CQBK üzrə əməliyyatlar başladıqdan bəri "Şahdəniz" Azərbaycan, Gürcüstan və Türkiyəni təhlükəsiz və etibarlı şəkildə qazla təmin edir.

"Şahdəniz" üçün HPBS (Hasilatın Pay Bölgüsü Sazişi) ilkin olaraq 30 il müddətinə imzalanmış, 2013-cü ilin dekabrında isə 2048-ci ilə qədər uzadılmışdır. Layihə üzrə iştirak payları belədir: bp ( 28,8 faiz), TPAO (19 faiz), PETRONAS (15,5 faiz), AzŞD (10 faiz), LUKOYL (10 faiz), NIKO (10 faiz) və "Cənub Qaz Dəhlizi Apstrim" (6,7 faiz).

Yatağın işlənməsinin növbəti mərhələsi, yəni "Şahdəniz-2" 2013-cü ildə təsdiqlənmişdir. "Şahdəniz-2" dünyanın ən böyük və ən mürəkkəb qaz layihələrindən biridir. Bu, Xəzər dənizində ilk sualtı işlənmə layihəsidir və dünyada bp şirkətinin idarə etdiyi ən iri sualtı infrastrukturudur. O, həmçinin Xəzər dənizindən hasil olunan təbii qazı ilk dəfə olaraq birbaşa Avropa bazarlarına çatdıran "Cənub qaz dəhlizi"nin ehtiyat mənbəyidir.

"Şahdəniz-2" layihəsi dənizdə 26 sualtı quyu, ümumi uzunluğu 500 kilometr olan sualtı boru kəmərləri və axın xətləri, körpü vasitəsilə birləşdirilmiş qoşa platformadan ibarətdir. Qaz 85 kilometrlik boru kəməri ilə quruya, yeni artan qaz hasilatına uyğun əhəmiyyətli dərəcədə genişləndirilmiş Səngəçal terminalına nəql olunur. Layihə çərçivəsində CQBK da genişləndirilmiş və Azərbaycanda 428 kilometrlik, Gürcüstanda isə 59 kilometrlik yeni boru kəməri, o cümlədən qazın Avropaya doğru 3500 kilometr məsafəni qət etməsi üçün üç yeni kompressiya obyektləri tikilmişdir.

Hasilatın planlaşdırılan ən yüksək sabit səviyyəsində "Şahdəniz-2" layihəsi çərçivəsində ildə 16 milyard kubmetr qaz hasil olunacaq. Yatağın işlənməsinin birinci mərhələsindən əldə olunan hasilat həcmi ilə birlikdə "Şahdəniz"dən ümumi hasilat ildə 26 milyard kubmetr qaz və gündə 100 min bareldən çox kondensat təşkil edəcək.

Bu ilin ikinci rübündə "Şahdəniz-2" çərçivəsində hasilata başlayan şərq-cənub cinahı üçüncü rübdə tam hasilat səviyyəsinə çatmışdır. Qərb-cənub cinahında "İsrafil Hüseynov" borudüzən barjı sualtı boruların quraşdırılmasını üçüncü rübdə uğurla və qrafiki qabaqlayaraq yekunlaşdırmışdır. Həmin işlər zamanı gəmi özünün ən yüksək icra və məhsuldarlıq göstəricilərinə nail olmuşdur və bu da şərq-şimal cinahında 2022-ci ilin ikinci rübünə planlaşdırılan sualtı borudüzmə işlərini daha tez, 2021-ci ildə başlamağa imkan vermişdir.

"İstiqlal" və "Maersk Explorer" qazma qurğuları "Şahdəniz- 2" hasilatı və sonrakı tədrici artım üçün artıq ümumilikdə 21 quyu qazıb və bunlardan 19-nu tamamlayıb. İki quyu tam dərinliyədək qazılıb və konservasiya olunub. Şimal cinahında isə sözügedən son 5-ci quyudan hasilat alınıb.

Hazırda "Şahdəniz" yatağından Azərbaycan (Azərkontrakt ASC-yə), Gürcüstan (GOGC-yə), Türkiyə (BOTAŞ-a) bazarlarına, çoxsaylı obyektlər üçün BTC şirkətinə və Avropadakı alıcılara qaz çatdırılması davam edir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Barter əməliyyatlarının əvəzləşdirilməsi qanunvericiliyə əsasən tənzimlənir

**Verginin məqsədləri üçün barter əməliyyatları malların (işlərin, xidmətlərin) bazar qiymətləri ilə satışı kimi qiymətləndirilir. İki vergiödəyicisi barter əməliyyatlarını elektron qaimə-faktura əsasında rəsmiləşdirir.**

Bu barədə barter əməliyyatları və onun vergiyə cəlb olunması qaydalarını izah edən iqtisadçı ekspert Cavid Vəlizadə bildirib.

Onun sözlərinə görə, barter əməliyyatının elektron qaimə-fakturada göstərilən məbləği azaldılmışdırsa, vergi orqanı vergitutma obyektlərini bazar qiymətləri nəzərə alınmaqla dəqiqləşdirir, verginin məbləğini yenidən hesablayır. Eyni zamanda vergi qanunvericiliyinin pozulmasına görə nəzərdə tutulan sanksiyaları tətbiq edir: "Barter əməliyyatlarının əvəzləşdirilməsi də qanunvericiliyə əsasən tənzimlənir. Vergi Məcəlləsinə əsasən, bu maddədə başqa hallar nəzərdə tutulmamışdırsa, ƏDV tutulan əməliyyatlar üçün malların (işlərin, xidmətlərin) alışı zamanı ödənilmiş ƏDV məbləği əməliyyatın dəyəri bank hesabına, ƏDV məbləği ƏDV-nin depozit hesabına ödənildikdə əvəzləşdirilir. Bu maddənin məqsədləri üçün malların (işlərin, xidmətlərin) barter edilməsi həmin əməliyyatın ƏDV-siz dəyərinin malları (işləri, xidmətləri) təqdim edən şəxsin bank hesabına ödənilməsinə bərabər tutulur".

Qeyd olunub ki, malların barter edilməsi ƏDV-yə cəlb edilən əməliyyat hesab olunur və aparılan əməliyyatların müqabilində tərəflər arasında verilən elektron qaimə-fakturalar üzrə ƏDV-nin məbləğləri ƏDV-nin depozit hesabına ödənildiyi halda həmin məbləğlər əvəzləşdirilir.

ŞƏHİDLƏR ölməz, VƏTƏN bölünməz!

# Gədəbəydə şəhidin xatirəsinə bulaq açılıb





**Gədəbəy rayonunun İnəkboğan kəndində Vətən müharibəsi şəhidi Allahverdiyev Turxan Rəsul oğlunun xatirəsinə inşa edilmiş bulağın açılışı olmuşdur.**

Açılış mərasimində çıxış edənlər 44 günlük Vətən müharibəsində Azərbaycan oğullarının göstərdikləri misilsiz şücaətdən danışmış, 30 ilə yaxın əsarətdə qalan torpaqlarımızın erməni işğalçılarından azad edilməsində Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə şanlı Ordumuzun qazandığı uğurlardan söhbət açmışlar.

Qeyd edilmişdir ki, Turxan Allahverdiyev 5 aprel 1996-cı ildə Gədəbəy rayonunun İnəkboğan kəndində anadan olub. 2013-cü ildə kənd tam orta məktəbini bitirdikdən sonra həqiqi hərbi xidmətə yollanıb. Xidmət zamanı hərbçi olmağa qərara verən Turxan 2019-cu ildən müddətdən artıq hərbi xidmətə başlayıb. 27 sentyabr 2020-ci ildə Turxan Allahverdiyev də könüllü olaraq döyüş bölgəsinə yollanıb. Şuşayacan gedib çıxan Turxan şəhər uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olub. Turxan noyabr ayının 12-də doğulduğu kənddə dəfn edilib.

Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında vəzifə borcunu şərəflə yerinə yetirdiyinə görə Allahverdiyev Turxan Rəsul oğlu "Vətən uğrunda" və "Şuşanın azad olunmasına görə" medalları ilə təltif olunub.

Mərasimdə şəhidin atası Rəsul Allahverdiyev və anası Könül Allahverdiyeva çıxış edərək övladlarının xatirəsini əziz tutanların hamısına minnətdarlıqlarını bildiriblər.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***

# Şuşanın azad olunmasında iştirak etsə də, Zəfər gününün sevincini yaşaya bilmədi

Tacəddin Şahəddin oğlu Əzizli qısa, lakin şərəfli ömrünü Vətənin bütövlüyü, torpaqlarımızın düşmən tapdağından xilas edilməsi uğrunda mübarizəyə həsr edərkən ölümü göz altına almışdı. Vətəni yaşatmaq üçün canından keçməyə hazır olan bütün igidlərimiz kimi.




1994-cü ilin avqustunda Salyan rayonunun Sarvan kəndində ziyalı ailəsində dünyaya göz açan Tacəddin ibtidai təhsilini doğulduğu kənddə, orta təhsilini Bakıda, ali təhsilini Ukraynada almış, hərbi xidmətini Qarabağda keçmişdi. Əsgəri xidmət zamanı öhdəsinə düşən işi layiqincə görmüş, hərbi texnikanı, döyüş qaydalarını lazımınca mənimsəmiş, fərqləndiyinə görə dəfələrlə fəxri fərmanlarla təltif olunmuşdu. Komandirləri həmişə ondan razı qalmış, valideynlərinə belə ağıllı, ləyaqətli və vətənpərvər övlad tərbiyə etdikləri üçün təşəkkür məktubları göndərmişlər.

2020-ci ilin iyul ayında erməni qəsbkarlarının Tovuz ətrafında törətdiyi təxribatlar ölkəmizin bütün gəncləri kimi, Tacəddini də silaha sarılmağa sövq etdi. İxtisası üzrə işləyib hər cür maddi təminatı olmasına baxmayaraq, onun üçün Vətən daha öndə idi. Bilirdi ki, ölkənin bu dar günündə onun kimi hərbi işi bilənlərə böyük ehtiyac var.

O, Vətən müharibəsində iştirak etdi. Füzulinin Qaraxanbəyli, Seyidəhmədli kəndlərində gedən döyüşlərə qatıldı, Ələsgərli kəndində şücaət nümayiş etdirdi. Oktyabrın 28-də üç döyüş yoldaşı ilə birlikdə erməni postunu ələ keçirdilər, düşmənin çoxlu sayda canlı qüvvəsini məhv edib 4 avtomobil və xeyli silah-sürsatını qənimət götürdülər. Sonra Cəbrayıl-Hadrut istiqamətində vuruşdu, komandirlərin tapşırıqlarını yüksək səviyyədə yerinə yetirdi, dəfələrlə yaralıların köməyinə yetişdi, ən çətin anlarda yoldaşlarına arxa oldu.

Tacəddinin qismətində Şuşaya qədər irəliləmək də varmış. Şuşanın alınmasında xüsusi şücaət göstərənlərdən biri də o oldu. Amma noyabrın 9-da - müharibənin zəfərimizlə bitməsinə cəmi bir neçə saat qalmış şəhidlik zirvəsinə yüksəldi.

Tacəddin Əzizli ölümündən sonra "Füzulinin azad olunmasına görə", "Şuşanın azad olunmasına görə", "Vətən uğrunda" medalları ilə təltif edilmişdir.

***Seyran CAVADOV,***
***"Azərbaycan"***

# «Zəngəzur da, Qarabağ da Azərbaycan torpağıdır!»

*Əvvəli 1-ci səh.*

Ermənistanın baş naziri Nikol Paşinyan etirazlara cavab olaraq qeyd edib ki, əslində Zəngəzur əvvəlki hakimiyyət tərəfindən Azərbaycana verilib: "Bu gün deyirlər ki, Zəngəzur hissə-hissə verilir. Gəlin baxaq, görək Zəngəzurun verilməsi formulu necədir: 2018-ci ildə Zəngəzurda uşaqların yalnız 4 faizi uşaq bağçasına getmək və məktəbəqədər təhsil almaq imkanında idi. Zəngəzurun təhvil verilməsi formulu məhz budur".

Bütün bunların Zəngəzurda yaşayışı çətinləşdirdiyini vurğulayan Paşinyan bu bölgədən insanların bir neçə ildir sistemli şəkildə köç etdiyinə diqqət çəkib. Ermənistanın ən nüfuzlu daşınmaz əmlak agentliyi sayılan "Aksern"in baş direktoru Akop Baqdasaryan da bu faktı təsdiq edib: "Zəngəzurda yaşayan ermənilər təcili olaraq, dəyər-dəyməz qiymətə evlərini, torpaq sahələrini satmağa başlayıblar". Onun sözlərinə əsasən, Zəngəzur daşınmaz əmlak bazarında canlanma son bir neçə aydır davam edir: "Canlanma deyəndə ki, evlərini dəyər-dəyməzə, təcili şəkildə satmaq istəyən çox, alıcı qüvvəsi isə demək olar ki, sıfır səviyyəsindədir. Hamı özü və ailəsi üçün təhlükəsiz yer istəyir. Belə getsə, yaxın vaxtlarda Zəngəzurda bir dənə də erməni ailəsi qalmayacaq".

Xatırladaq ki, İkinci Qarabağ müharibəsi başa çatdıqdan sonra regionda kommunikasiya xətlərinin bərpası və yenilərinin yaradılması Azərbaycan xarici siyasətində ən prioritet məsələlərdən biri kimi gündəmdədir. Bu kontekstdə rəsmi Bakı ötən il noyabrın 10-da Azərbaycan, Rusiya, Ermənistan liderləri tərəfindən imzalanan üçtərəfli Bəyanata əsasən, nəqliyyat marşrutlarının bərpasına, o cümlədən də Zəngəzur dəhlizinin istifadəyə verilməsinə xüsusi diqqət yetirir.

Bölgədə kommunikasiyaların açılması 11 yanvar 2021-ci il tarixli üçtərəfli Bəyanatda da təsbit edilib. Rəsmi Bakının yanaşmasına əsasən, kommunikasiyaların bərpası Azərbaycan və Ermənistan arasında əlaqələrin normallaşmasına xidmət etməklə yanaşı, iki ölkə üzərindən ticarət və nəqliyyat daşımalarını əhəmiyyətli dərəcədə artıracaq. Proseslərin bu səpkidə inkişafı Azərbaycan və Ermənistana mühüm dividendlər qazandıracaq, eyni zamanda tərəfdaş dövlətlərə böyük fayda verəcək.

## Qarabağ məsələsi birdəfəlik bağlanıb

Bütün bunlar nəticə etibarilə regionda davamlı sülhün və sabitliyin təmin edilməsində önəmli rol oynayacaq. Sülh müqaviləsinin imzalanması ilə əməkdaşlıq üçün yaranacaq yeni zəmin fonunda Ermənistan çoxdan arzusunda olduğu bir sıra vacib layihələri reallaşdıra bilər. Buna konkret nümunə kimi Ermənistanın Rusiya və İranla dəmir yolu bağlantısını yarada bilmək imkanlarını göstərmək olar. Ermənistan qəbul etməlidir ki, onun təhlükəsizliyinə və iqtisadi inkişafına regionun lider ölkəsi olan Azərbaycandan başqa heç bir dövlət zəmanət verə bilməz.

Bu günlərdə isə Ermənistanın Respublikaçılar Partiyasının sədr müavini Armen Aşotyan bildirib ki, baş verənlər Azərbaycana Zəngəzur dəhlizini daha tez reallaşdırmaq imkanı yaradır: "Noyabrın 10-da imzalanan sənəddə dəhliz məntiqi var. Sənədin 9-cu bəndində deyilir ki, Azərbaycanı Naxçıvanla birləşdirən nəqliyyat marşrutu Rusiya sərhədçiləri tərəfindən idarə olunacaq. Yəni Ermənistan artıq öz suverenliyinin bir hissəsini verib. Ona görə də deyəndə ki, dəhliz olmayacaq, sizi aldadırlar. Onsuz da dəhliz olacaq. Problem başqadır: bu dəhlizə kim nəzarət edəcək - Rusiya, yoxsa Azərbaycan qüvvələri?".

O, Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın dəhliz məsələsinin güc yolu ilə həllinə cəhd ediləcəyi halda müqavimət göstərəcəyi barədə bəyanatına da toxunub: "Uşaqlar, əgər sizin rəhbərliyiniz altında olan silahlı qüvvələr müqavimət göstərmək iqtidarındadırsa, bəs nə üçün Qaragöl və Zod-Xəznəvarda sərhədimizi qoruya bilmirsiniz? Xalqı axmaq hesab edirlər. Nə qədər aldandığınızı başa düşürsünüz, əziz insanlar? Camaat, sizdən üzr istəyirəm, amma Paşinyan hökuməti sizi ulaq yerinə qoyub. Hətta qoydular, bunu həzm etdiniz və yenə də həyasızcasına qoymağa davam edirlər. Onlar sizin səbir kasanızın hara qədər doldurulacağını anlamaq istəyirlər ki, çıxıb onu və onun dəstəsini devirib, rədd edəsiniz".

Erməni siyasi icmalçı Qalust Qriqoryan isə bildirir: "Bu yaxınlarda Nikol Paşinyan etiraf etdi ki, Zəngəzurda müəyyən əraziləri Azərbaycan tərəfinə təqdim edib. Paşinyanın sözlərinə görə, bu qərar hərbi əməliyyatların yenidən başlanmaması üçün verilib. Hazırda Bakıda nəinki Zəngəzur dəhlizi barədə söhbətlər dolaşır, həm də Azərbaycan tərəfi Zəngəzur dəhlizinin əməli surətdə həyata keçirilməsi ilə məşğul olur. Keçək Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryanın bu günlərdə bəyan ediyi fikirlərə: "Ermənistan demarkasiya və delimitasiya prosesinə başlamağa hazırdır". Bu o deməkdir ki, Qarabağ məsələsi birdəfəlik bağlanıb. Biz ermənilər də etiraf etməyə başlaycaq ki, Zəngəzur da, Qarabağ da Azərbaycan torpağıdır!"

Digər erməni hərbi-siyasi ekspert Gevorq Gevorqyan isə qeyd edib ki, Türkiyə və Azərbaycan Zəngəzur dəhlizini alacaqlarından və türklərin sülhü ilə Ermənistanın "dövlətçiliyi"nin məhvinin başlayacağından əmindirlər: "Ermənistan ətrafında sakit şəkildə hədsiz dərəcədə şübhəli proseslər baş verir. Biz yenə uduzuruq".

Xarici siyasət, müdafiə və təhlükəsizlik üzrə rus ekspert Qriqori Trofimçuk isə qeyd edir ki, Ermənistanda siyasi qüvvələrin mövqeyindən asılı olmayaraq, Zəngəzur dəhlizi reallaşcaq. Buna qarşı çıxmaq erməni tərəfinə baha başa gələcək: "Azərbaycan tərəfi mütəmadi olaraq xatırladır ki, 2020-ci il razılaşmasının vaxtı sürətlə bitir. Zəngəzur dəhlizinin olub-olmaması ilə bağlı mübahisə etmək olmaz".

Bütün bunlar dəhlizin reallaşmasının bir daha qaçılmaz olduğunu göstərir.

***Elçin CƏFƏROV,***
***"Azərbaycan"***

# Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq Proqramı çərçivəsində yüksəksəviyyəli virtual dialoq keçirilib

## Ölkəmizdə həyata keçirilən sosial dəstək proqramları barədə beynəlxalq tədbir iştirakçılarına məlumat verilib

Azərbaycanın 2021-ci il ərzində sədrlik etdiyi Mərkəzi Asiya Regional İqtisadi Əməkdaşlıq (CAREC) Proqramı çərçivəsində "CAREC regionunda COVID-19 pandemiyasından sonra artan bərabərsizliyin aradan qaldırılması üçün sosial xərclər" mövzusunda videokonfrans formatında yüksəksəviyyəli dialoq keçirilib.




11 ölkənin (Azərbaycan, Gürcüstan, Əfqanıstan, Çin, Qazaxıstan, Qırğızıstan, Monqolustan, Tacikistan, Özbəkistan, Türkmənistan, Pakistan) daxil olduğu proqram regional əməkdaşlığın dəstəklənməsi vasitəsilə üzv ölkələrdə iqtisadi artımın və həyat tərzinin yaxşılaşdırılması məqsədi daşıyır.

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Kərimov virtual dialoqun COVID-19-un təsirlərinin yumşaldılması tədbirləri və pandemiyadan xilas olmaq üçün strategiyalarla bağlı fəal təcrübə mübadilələri üçün dəyərli imkan yaratdığını vurğulayb. Nazir müavini CAREC regionu çərçivəsində əməkdaşlığa böyük əhəmiyyət verən Azərbaycanın artıq 3-cü dəfə olmaqla 2021-ci ildə də bu inklüziv əməkdaşlıq platformasına sədrlik etdiyini, CAREC-in regionun davamlı iqtisadi inkişafına gələcəkdə də töhfə verəcəyinə əminliyini bildirib.

A.Kərimov Prezident İlham Əliyevin tapşırığı ilə pandemiyanın ilk günlərindən ölkəmizdə icra olunan çevik və genişmiqyaslı sosial dəstək proqramlarından danışıb. O, ölkəmizdə sosial ödənişlərin və əməkhaqların artırılması istiqamətində nailiyyətləri qeyd edib. Normativ-hüquqi bazanın təkmilləşdirilməsi və yeni qanunların, strategiyaların qəbulu, sosial sahədə elektron xidmətlərin geniş tətbiqi, sosial ödənişlərin adekvatlığının və şəffaflığının təmin edilməsi, sosial xidmətin keyfiyyətinin yüksəldilməsi, vətəndaş məmnunluğuna nail olunması istiqamətlərində atılan mühüm addımları diqqətə çatdırıb. Dövlət sosial xidmətlərinin "bir pəncərə"dən, operativ və şəffaf təşkili üçün yaradılan DOST mərkəzləri, avtomatlaşdırılmış pensiya təyinatı mexanizmi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin 18 altsistemdən ibarət mərkəzləşdirilmiş informasiya sistemi, "e-sosial" internet portalı, "Məşğulluq" alt sistemi barədə məlumat verib.

Nazir müavini Azərbaycanda qeyri-rəsmi məşğulluğun qarşısının alınması, işçi qüvvəsinin əmək bazarına uyğunlaşdırılması, inklüziv məşğulluğun təmin edilməsi istiqamətlərində aparılan işləri qeyd edib, gender bərabərliyinin təmin edilməsinin diqqətdə saxlandığını bildirib. A.Kərimov 2019-cu ildə sosial müavinət və pensiyalarda orta hesabla 92 faiz, minimum pensiyada 82 faiz, minimum əməkhaqqında 92 faiz artım olduğunu, digər sosial ödənişlərdə baş verən artımları diqqətə çatdırıb. 2019-cu il üzrə edilən həmin artımların maliyyə həcminin illik 2,3 milyard manat olduğunu və 4,2 milyon nəfəri əhatə etdiyini, bu artımların pandemiyanın həssas əhali qruplarına mənfi təsirlərini əhəmiyyətli dərəcədə yumşaltmağa kömək etdiyini vurğulayıb.

A.Kərimov həmçinin pandemiya dövründə ünvanlı sosial yardım, özünüməşğulluq proqramlarının əhatə dairəsinin genişləndirildiyini, xüsusi karantin dövründə birdəfəlik ödəmə proqramlarının icra edildiyini, 90 min işsiz və işaxtaran üçün haqqı ödənilən ictimai işlərin təşkil olunduğunu və s. sosial dəstək mexanizmlərini diqqətə çatdırıb. O, qarşıdakı dövrdə də ölkəmizdə sosial rifah siyasətinin davam etdiriləcəyini, 2022-ci ildə Azərbaycanda sosialyönümlü xərclərin dövlət büdcəsinin 46,4 faizini və ya 13,8 milyard manatını təşkil edəcəyini bildirib. Qeyd edib ki, gələn il minimum əməkhaqqının artırılması, büdcədən maliyyələşən təşkilatların əməyinin ödənilməsi sisteminin təkmilləşdirilməsi, minimum pensiyanın, ehtiyac meyarının, bir sıra sosial müavinət və ödənişlərin artırılması nəzərdə tutulur.

Nazir müavini vurğulayıb ki, bir il əvvəl Azərbaycan Respublikası beynəlxalq hüquq normaları çərçivəsində öz ərazi bütövlüyünü bərpa etdi, BMT-nin 4 qətnaməsinin icrasına nail oldu. İşğaldan azad edilmiş ərazilərimizin bərpası istiqamətində hazırda fəal iş aparılır.

İclasda COVID-19 pandemiyası nəticəsində yaranmış iqtisadi və maliyyə çətinliklərinin həlli, gələcəkdə yarana biləcək iqtisadi və maliyyə böhranlarına qarşı güclü və davamlı sosial müdafiə sisteminin qurulması məsələləri ətrafında müzakirələr, təcrübə mübadilələri aparılıb.

# "Azərişıq" ASC Kəlbəcərdə hərbi hissələri elektrik enerjisi ilə təmin edib

"Azərişıq" ASC-nin Mətbuat xidmətinin verdiyi məlumata görə, Kəlbəcərin elektrik enerjisi ilə təchizatını dayanıqlı və keyfiyyətli etmək üçün görülən işlər davam etdirilir.

Son bir ay ərzində görülən işlər çərçivəsində hərbi hissələr elektrik enerjisi ilə təmin olunub. Qısa zamanda rayonun Vəng, Bağlıpəyə, Qamışlı, Çaykənd və Qılınclı kəndləri ərazisində ümumilikdə 8 ədəd komplekt transformator məntəqələri quraşdırılaraq hərbi hissələrin və taborların elektrik enerjisi ilə təchizatı başa çatdırılıb.

Ümumilikdə elektrik enerjisi təminatı başa çatdırılmış hərbi hissələr üçün 6,2 kilometr 10 kV-luq, 2500 metrdən çox 0,4 kV-luq kabel elektrik veriliş xətti, 1,5 kilometrdən artıq 10 kV-luq hava elektrik veriliş xətti çəkilib. Görülən işlərin davamı olaraq 110/35/10 kV-luq "Kəlbəcər" yarımstansiyasından Vəng, Bağlıpəyə kəndləri istiqamətində 10 kV-luq hava elektrik veriliş xətti bərpa olunub. "Kəlbəcər" yarımstansiyası-Zülfüqarlı kəndi arası 18 km 10 kV-luq hava elektrik veriliş xətti bərpa edilib.

Həmçinin Yanşaq və Çopurlu kəndləri arasında 35 kV-luq hava xətinin bərpasına başlanılıb. Eyni zamanda "Kəlbəcər" yarımstansiyası -"İstisu" qəsəbəsi arası 3 km məsafədə hava xəttində yararsız vəziyyətdə olan naqillər yenisi ilə əvəz olunub, yeni dayaqlar quraşdırılıb. İstisu-Alagöllər arası 37 kilometr 35 kV-luq hava kabel xəttinin bərpası üçün dayaqların quraşdırılması işləri davam etdirilir.

Kəlbəcərdə, xüsusilə rayonun yüksəklik ərazilərində kəskin hava şəraitinin davam etməsi "Azərişıq" ASC əməkdaşlarına ciddi çətinlik yaratsa da, bütün işlər vaxtında, plana uyğun yerinə yetirilir. Kəlbəcərin fasiləsiz, dayanıqlı və keyfiyyətli elektrik enerji ilə təchizatı üçün bütün tapşırıqlar uğurla icra olunur.

# İşğaldan azad edilmiş ərazilərə icazəsiz daxil olan şəxslər saxlanılıblar

İşğaldan azad edilmiş ərazilərə mülki şəxslərin qanunsuz keçmələri onların həyat və sağlamlıqları üçün təhlükəlidir. Bu barədə dəfələrlə edilən xəbərdarlıqlara baxmayaraq, hələ də bu qaydalara əməl etməyən şəxslərə rast gəlinir.



Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, Ağdam Rayon Polis Şöbəsi əməkdaşlarının keçirdikləri tədbirlər nəticəsində həmin ərazilərə icazəsiz daxil olan şəxslər müəyyənləşdiriliblər. Rayon ərazisindəki nəzarət postlarından qanunsuz yollarla yayınaraq, insan həyatı üçün təhlükəli ərazidə olan bir yük və bir minik avtomobili müəyyənləşdirilərək dayandırılıb. Təhlükəsizlik qaydaları çərçivəsində həmin avtomobillər ərazidən çıxarılıb.

Həyatlarını təhlükəyə ataraq, minalardan tam təmizlənməmiş ərazidə müəyyənləşdirilən qayda və tələblərə etinasız yanaşan altı nəfər - "QAZel" markalı avtomobilin sürücüsü, Ağcabədi rayon sakini Raci Məmmədov, "VAZ-21011" markalı avtomobilin sürücüsü Mahir Məmmədov və sərnişinləri - Elməddin Novruzov, Mütəllim Mirzalıyev, İntiqam Vəliyev və Nazim Məmmədov saxlanılıblar.

Həmin şəxslər barəsində başlanan inzibati icraata uyğun olaraq toplanan materiallar rayon məhkəməsinə göndərilib. Məhkəmənin qərarı ilə beş nəfərə İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə uyğun olaraq 25 sutka həbs cəzası verilib. N.Nəmmədov sağlamlıq vəziyyəti ilə əlaqədar 200 manat məbləğində cərimələnib.

DİN bir daha vətəndaşlara müraciət edərək, onları həyat və sağlamlıqlarını təhlükədə qoyaraq işğaldan azad edilmiş ərazilərə qanunsuz yollarla getməməyə, belə səfərlərdən çəkinməyə çağırır.

# Masallıda narkomanlığa qarşı mübarizə işinin təşkili üzrə tədbir keçirilib

"Narkotik vasitələrin, psixotrop maddələrin və onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığa qarşı mübarizəyə dair 2019-2024-cü illər üçün Dövlət Proqramı"nın icrası istiqamətində Masallı rayonunda tədbirlər keçirilib.

Bu barədə AZƏRTAC-a Narkomanlığa və Narkotik Vasitələrin Qanunsuz Dövriyyəsinə Qarşı Mübarizə üzrə Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupundan məlumat verilib.

Dövlət Komissiyasının daimi fəaliyyət göstərən işçi qrupunun təşkilatçılığı və Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə və Şəxsi Heyətlə İş idarəsinin, Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin, Səhiyyə Nazirliyi Respublika Narkoloji Mərkəzinin nümayəndələrinin iştirak etdikləri tədbirdə rayon üzrə müvafiq komissiyanın üzvləri ilə müzakirələr aparılıb, onlara metodiki kömək göstərilərək zəruri əyani təbliğat materialları verilib.

Bundan əlavə, ümumtəhsil məktəblərinin təlim-tərbiyə işləri üzrə direktor müavinləri, məktəb psixoloqları, valideyn komitəsi sədrlərinə "Narkotik asılılıq, onun psixoloji səbəbləri və məktəbdə görülməli işlər" mövzusunda treninq keçirilib.

Sonda treninq iştirakçılarına Dövlət Komissiyasının İşçi qrupunun hazırladığı sertifikatlar, narkotik vasitələrdən və psixotrop maddələrdən sui-istifadə edən şəxslərin müəyyənləşdirilməsinə kömək üçün "Metodik tövsiyələr" kitabçası təqdim olunub.



# Bakının mərkəzində yaşam idealı - "Aydınlı Residence"

"Aydınlı Residence" premium yaşayış kompleksində mənzil və qeyri-yaşayış sahələrinin satışına start verilmişdir.
Ünvan: Bakı şəhəri, Yasamal rayonu, 252-ci məhəllə (M.Muxtarov, L.Tolstoy, S.Tağızadə və Zərgərpalan küçələrinin kəsişməsi)

***-1-ci mərtəbədə 1564.86 kv.m, qeyri-yaşayış sahəsi: 1 kv.m 9000AZN***

***1-ci mərtəbədə 1633.13 kv.m, qeyri-yaşayış sahəsi: 1 kv.m 8000AZN***

***1, 2, 3 və 4 otaqlı mənzillər: 1 kv.m 2700 AZN-dən başlayan qiymətlərlə***

- Mərtəbə sayı: 12
- Mənzil sayı: 143
- Hər mərtəbədə mənzil sayı: I blok - 5; II blok - 4; III blok - 4
- Hər blokda lift sayı: 2
- Korpus: 3
- Blok: 3
- Parkinq mərtəbələrinin sayı: 2
- Parklanma yerləri: 71

"Aydınlı Residence" premium yaşayış kompleksi zövqlü və kübar görünüş, məxsusi memarlıq həllinə malik olmaqla ailəvi yaşayış və istirahət üçün ideal məkandır.

**BİZİM ÜSTÜNLÜKLƏRİMİZ**

- Dəniz görünüşlü və şəhərin bütün gözəlliklərini görəcəyiniz panorama;
- Kompleks şəhərin tam mərkəzində, ekoloji cəhətdən təmiz olan ərazidə yerləşir;
- Yaşıllıqla əhatə olunmuş geniş və rahat həyətyanı sahə;
- Mərkəzləşdirilmiş informasiya sistemi;
- 24 saat fasiləsiz işıq, su və qaz təminatı;
- Müasir səssiz və sürətli liftlər;
- Zirzəmidə 2 mərtəbədən ibarət avtomobil dayanacağı;
- Mərkəzləşdirilmiş mühafizə xidməti;
- İri supermarket;
- Kafe və restoranların yer aldığı 2 mərtəbəli ictimai iaşə sahəsi;
- Fasad elementləri klassik ornamentlər ilə bəzədilmiş 1,2,3 və 4 otaqlı mənzillər müasir yaşam tələblərinə tam uyğundur;
- Məxsusi görünüşü və rahatlığı ilə seçilən mənzillərin hər birinin sahəsi 70.6 -193 kv.m aralığındadır;
- Qapalı həyət;
- Uşaq meydançası;
- 24/7 mühafizə;
- "İçərişəhər" metrostansiyasına 400 m, Fəvvarələr meydanına 200 m məsafədə.

**Əlaqə nömrəsi:**
**Mobil: +994772779963**
**Daxili nömrə: +994125059511 (410)**

# "Azercell"in dəstəyi ilə növbəti Uşaq Paralimpiya Oyunlarına start verildi

## Uşaqlar beş idman növü üzrə yarışlarda iştirak edəcəklər

**Ölkənin lider mobil operatoru "Azercell Telekom" MMC-nin dəstəyi ilə təşkil olunan Uşaq Paralimpiya İdman Oyunlarına yenidən start verilir. Uşaqların təhlükəsizliyini təmin etmək məqsədilə karantin rejiminin tələblərinə uyğun olaraq ənənəvi oyunların hər bir idman növü üzrə ayrı-ayrı yarışlarla, azarkeşlər olmadan keçirilməsi qərara alınıb.**

2021-ci ilin Uşaq Paralimpiya İdman Oyunları çərçivəsində Sumqayıtda yerləşən Respublika Paralimpiya İdman Kompleksində pouerliftinq üzrə test yarışları baş tutub, həmçinin stolüstü tennis oyunları keçirilib. İlin sonunadək uşaq paralimpiyaçıları digər idman növləri üzrə yarışlarda da iştirak edə biləcəklər. Balaca idmançılar cüdo (26 noyabr), üzgüçülük (4 dekabr) və taekvando (10 dekabr) üzrə yarışlarda güclərini sınayacaqlar.

2014-cü ildən etibarən "Azercell"in dəstəyi ilə fəaliyyət göstərən Azərbaycan Uşaq Paralimpiya Komitəsi indiyədək sağlamlıq imkanları məhdud olan 200-ə yaxın uşaq və yeniyetməni öz ətrafında toplayıb. Burada uşaqlar peşəkar məşqçilərin köməyi ilə 10 idman növü - cüdo, üzgüçülük, para-taekvando, pauerliftinq, boccia, qolbol, stolüstü tennis, əlil arabasında idman rəqsləri, dağ xizəyi və snoubord ilə məşğul olurlar. Onlar həmçinin kütləvi idman tədbirləri, yerli və beynəlxalq əhəmiyyətli yarışlarda iştirak edirlər.

Uşaq Paralimpiya Komitəsi beynəlxalq təcrübədə ilk dəfə olaraq 2013-cü ildə Azərbaycan Respublikası Milli Paralimpiya Komitəsinin nəzdində yaradılıb. Komitə sağlamlıq imkanları məhdud uşaqların abilitasiya və reabilitasiya yolu ilə cəmiyyətə inteqrasiyasına yardım edir. "Azercell Telekom" MMC bu mühüm missiyanı dəstəkləməklə ölkəmizdə uşaqların fiziki sağlamlığı və inkişafının təmin olunmasına öz töhfəsini verir.

# OXUCULARIN NƏZƏRİNƏ!

# "AZƏRBAYCAN"

***qəzeti 2022-ci il üçün abunə yazılışı kampaniyasına başlayır!***

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır.**
**Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" ASC* | *(012) 598-49-55, (051) 225-02-13* |
| *"Qaya" firması* | *(012) 566-77-80, (050) 214-40-53* |
| *"Kaspi" MMC* | *(012) 432-39-55, (012) 510-82-24* |
| *"Region Press" MMC* | *(055) 316-79-01, (050) 316-79-01* |
| *"Səma-M" MMC* | *(012) 594-09-59* |
| *"Ziya" LTD* | *(012) 497-76-96, (050) 306-77-22* |
| *"Pressinform" MMC* | *(012) 598-49-52, (070) 340-01-00* |
| *"City press" MMC* | *(055) 819-09-26* |

*1 illik*
124,80 (yüz iyirmi dörd manat səksən qəpik) manat

*6 aylıq*
62,40 (altmış iki manat qırx qəpik) manat

*3 aylıq*
31,20 (otuz bir manat iyirmi qəpik) manat

*Hörmətli oxucular!*
*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya (012) 539-59-33 nömrəli telefona zəng vura bilərsiniz.*

**ABUNƏ YAZILMAĞA TƏLƏSİN!**

# "Buta Airways" "Jukovski" hava limanına reyslərin sayını artırır

**Azərbaycanın aşağıbüdcəli aviadaşıyıcısı "Buta Airways" Bakıdan Moskvanın "Jukovski" hava limanına və geriyə yerinə yetirilən xüsusi reyslərinin sayını artırır.**




"Buta Airways" aviaşirkətinin Mətbuat xidmətinin verdiyi məlumata görə, həftənin cümə günləri "Jukovski" hava limanına yerinə yetirilən uçuşlara əlavə olaraq, 15 dekabr tarixindən etibarən çərşənbə günləri də həftəlik reys əlavə olunacaq.

Ölkədəki epidemioloji vəziyyətlə əlaqədar tətbiq olunan məhdudiyyətləri və qaydaları nəzərə alaraq aviaşirkət biletləri yalnız iki tarif üzrə təklif edir - "Standart" və "Super". Hər iki tarifə ödənişsiz yer seçimi və hava limanında qeydiyyat daxildir.

Həmin reyslərə biletləri "Buta Airways" aviaşirkətinin rəsmi saytından ("Super" və "Standart" tarifləri üzrə), həmçinin aviaşirkətin akkreditə olunmuş agentliklərindən (yalnız "Super" tarifi üzrə) əldə etmək mümkündür.

Aviabiletlərin dəyəri 55 avrodan başlayır.

Pandemiya dövründə qeyd edilən reyslərə həm gediş, həm gəliş zamanı Heydər Əliyev Beynəlxalq Aeroportunun birinci terminalında xidmət göstərilir.

Reyslərə yalnız COVID-19 pandemiyası səbəbindən tətbiq edilən məhdudiyyətlər şəraitində uçuş icazəsi olan sərnişinlər kateqoriyası qəbul olunur.

Rusiyaya səfər etməyi planlaşdıran bütün sərnişinlərə uçuşdan əvvəl bu ölkə ərazisinə giriş zamanı tətbiq olunan qayda və məhdudiyyətlərlə tanış olmaları tövsiyə olunur. Müvafiq məlumat aviaşirkətin saytında dərc olunmuşdur: **https://www.butaairways.az/az/covid/russia**

Rusiyaya səfər edən bütün xarici vətəndaşlar "COVID-19 olmadan səyahət edirik" mobil əlavəsini smartfonlarına yükləməli və PCR-testinin nəticəsini həmin mobil əlavəyə daxil etməlidirlər.

Azərbaycana giriş qaydaları haqqında məlumatla burada tanış olmaq mümkündür: **https://www.butaairways.az/az/covid/azerbaijan**

PCR-testin mənfi nəticəsi barədə arayışda onun həqiqiliyini təsdiq edən QR-kodun olması tövsiyə edilir. Belə kodun mövcudluğu hava limanında rəsmiyyət prosedurlarından daha sürətli keçməyə kömək edəcəkdir.

COVID-19 testinin nəticəsi uçuşdan əvvəl 72 saat ərzində etibarlı olmalıdır.

# "Azərişıq" ASC minaya düşmüş əməkdaşının müalicəsinə xüsusi diqqət yetirir

21.11.2021-ci il tarixində Laçın rayonunun Güləbird kəndi ərazisində minaya düşərək xəsarət alan "Azərişıq" ASC əməkdaşı Əbilov Mahir Ramiz oğlunun vəziyyəti hazırda stabildir.

"Azərişıq" ASC-nin Mətbuat xidmətindən verilən məlumata görə, hadisədən dərhal sonra Mahir Əbilov rəhbərliyin qərarı ilə təcili olaraq Bakı şəhərindəki özəl klinikalardan birinə gətirilib və əməliyyat olunub. Təəssüf ki, yaralının bir ayağı topuqdan amputasiya edilib.

Qeyd edək ki, Biləsuvar rayon sakini, 1988-ci il təvəllüdlü Əbilov Mahir Ramiz oğlu xidməti vəzifəsini yerinə yetirən zaman minaya düşüb. O, Laçın istiqamətində yüksəkgərginlikli xəttin çəkilişi üçün Biləsuvar Elektrik Şəbəkəsindən elektrik kimi ezam olunub. Erməni terroru dinc insanlara qarşı öz çirkin üzünü hər zaman göstərməkdədir. Bununla belə cəsur "Azərişıq" əməkdaşları müharibənin ilk günündən etibarən heç nədən qorxmayaraq hərbçilərimizlə çiyin-çiyinə hər zaman öndə olmuşdur. Müharibədən sonra da quruculuq işlərində yenə böyük şərəf hissi ilə öz fəaliyyətlərini davam etdirirlər.

# Xəzər dənizində köməksiz vəziyyətdə qalan iki balıqçı xilas edilib

Azərbaycan Respublikasının dəniz sərhədlərinin etibarlı mühafizəsinin təmin olunması, Xəzər dənizində rejim qaydalarına nəzarətin gücləndirilməsi, qaçaqmalçılığa qarşı mübarizə və xilasetmə tədbirləri qətiyyətlə davam etdirilir.




Dövlət Sərhəd Xidmətinin (DSX) Mətbuat mərkəzindən bildiriblər ki, noyabrın 20-də saat 12:05 radələrində DSX Sahil Mühafizəsinin Xəzər dənizinin cənub istiqamətində dövlət sərhədinin mühafizəsini həyata keçirən sərhəd gözətçi gəmisi tərəfindən ərazinin müşahidəsi zamanı su səthində şübhəli bağlama aşkarlanıb. Bağlamaya baxış zamanı narkotik vasitəyə bənzər 4 kiloqram 365 qram çəkidə maddə aşkarlanaraq götürülüb. Faktla bağlı əməliyyat-istintaq tədbirlərinə başlanılıb.



Noyabrın 21-də axşam saatlarında Dövlət Sərhəd Xidmətinin Sahil Mühafizəsinin Mərkəzi regional şöbəsinin sahil nəzarət bölməsinə balıqçı qayığının mühərrikində yaranmış nasazlıq səbəbindən 2 nəfərin dənizdə köməksiz vəziyyətdə qalmaları barədə məlumat verilib.

Təxirəsalınmaz tədbirlər nəticəsində qayığın olduğu ərazinin koordinatları müəyyənləşdirilib. Sumqayıt reydində sahildən təqribən 4 mil aralıda dənizdə qalmış balıqçı qayığının heyət üzvləri - Sumqayıt şəhər Hacı Zeynalabdin Tağıyev qəsəbəsinin sakinləri Hüseynov Fuad Əmircan oğlu və Hüseynov Ramil Əmircan oğlu əraziyə göndərilmiş sərhəd gözətçi gəmisi tərəfindən xilas edilərək üzmə vasitəsilə birlikdə sahilə çıxarılıblar.

# BİLDİRİŞ

Azərbaycan Respublikası Mərkəzi Bankının əməkdaşlarının tibbi sığortasına dair elan edilmiş açıq tender üzrə Tender komissiyasının 19 oktyabr 2021-ci il tarixli qərarına əsasən "Ata Sığorta" ASC qalib elan edilmişdir.

Qalib sığortaçı ilə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının kollektivi komissiyanın Riyaziyyat və mexanika üzrə ekspert şurasının sədri, riyaziyyat elmləri doktoru, professor Araz Əliyevə atası

**RAFİQ ƏLİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin Ümumi və tətbiqi riyaziyyat kafedrasının əməkdaşları Araz Əliyevə atası

**RAFİQ MUSA OĞLU ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Ünvan**



*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə*
*e-mail:*
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

**Telefonlar**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

*Gündəlik qəzet*

Tiraj 5590
Sifariş 2402
Qiyməti 40 qəpik